

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 28 (718) ■ 23 iyul 2014 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyev Xızı rayonuna səfər etmişdir

*İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Xızı şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoymuşdur.*




Abidənin ətrafında görülmüş işlər barədə dövlətimizin başçısına məlumat verilmişdir. Bildirilmişdir ki, rayon mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkının ərazisi tamamilə yenidən qurulmuşdur. Xızının mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. 3,6 hektar ərazidə salınmış parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılmış, orijinal elementlər və formalarla zənginləşdirilmişdir. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınmışdır.

Prezident İlham Əliyevə Xızı şəhərinin mərkəzi hissəsinin yenidən qurulması layihəsi barədə ətraflı məlumat verilmişdir. Qeyd olunmuşdur ki, layihədə nəzərdə tutulan «Xızı Grand Hotel» ən yüksək standartlar səviyyəsində inşa olunacaqdır.

Azərbaycan Prezidenti rayonun mərkəzində yeni tikilən Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanmışdır. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülmüş, müasir interyeri ilə diqqəti cəlb edən Mərkəzin foyesində ümummilli liderin büstü qoyulmuşdur. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair tarixi sənədlərə geniş yer verilmişdir. Burada ümummilli liderin həyatının uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet və müstəqillik dövrünə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda ulu öndərin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyinin müxtəlif məqamları əks olunmuşdur. Bundan başqa, Mərkəzdə ümummilli liderlə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir. Binada, həmçinin, Prezident İlham Əliyevin Xızıya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanmışdır. Bu məqsədlə mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulmuşdur.

Qeyd olunmuşdur ki, mərkəzdə sərgi salonu, kafe, istirahət və digər yardımçı otaqlar vardır. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri sərgilənir. Mərkəzdə elektron kitabxana, kulinariya, xalq sənətkarlığı emalatxanası, musiqi və heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərəcək. Mərkəzdəki 230 yerlik akt və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin, o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədilə açıq dərslərin keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Xızı Rayon İcra Hakimiyyətinin yeni binasında yaradılan şəraitlə də tanış olmuşdur. Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Binada ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılmışdır. Fotoguşələrdə, həmçinin, Prezident İlham Əliyevin müxtəlif illərdə Xızı rayonunda keçirilən tədbirlərdə iştirakını əks etdirən şəkillər böyük maraq doğurur.

Dövlətimizin başçısı otaqlarda yaradılan şəraitlə də tanış olmuşdur. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulmuş, müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılmışdır. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Rayonun bütün icra nümayəndəlikləri şəbəkəyə qoşulub. Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bildirilmişdir ki, bu istirahət məkanının ümumi sahəsi 5800 kvadratmetrdir. Parkda sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılmış, geniş yaşıllıq zolağı salınmışdır.

Sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Son illər Azərbaycanın regionlarının yüksək inkişaf etdiyini diqqətə çatdıran dövlətimizin başçısı Xızıda geniş quruculuq, abadlıq işlərinin və infrastruktur layihələrinin həyata keçirildiyini, yeni istehsal müəssisələrinin istifadəyə verildiyini bildirmişdir.

# Dövlətimizin başçısı iftar mərasimində iştirak etmişdir

*İyulun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır. Prezident İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*



İftar mərasimi «Qurani-Kərim»dən ayələrin və Ramazan duasının oxunması ilə başlamışdır. Şeyxülislam Allahşükür Paşazadə bildirmişdir ki, iftar süfrəsi arxasında Azərbaycan Prezidenti ilə görüşmək bir ənənəyə çevrilmişdir.

İftar mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə din-dövlət münasibətlərinin möhkəm və sağlam təməl üzərində qurulduğunu, bütün bunların respublikamızın uğurlu inkişafında xüsusi yer tutduğunu diqqətə çatdırmışdır: «Azərbaycan öz milli, dini dəyərlərinə sadiqdir. Bizim dini dəyərlərimiz milli dəyərlərimizin tərkib hissəsidir və milli dəyərlərimizi dini dəyərlərsiz təsəvvür etmək mümkün deyil. Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır. Dövlətçiliyimizin möhkəm siyasi dayaqları vardır».

Dövlətimizin başçısı Azərbaycanda milli, dini, məzhəb zəminində heç vaxt qarşıdurmanın olmadığını və olmayacağını bildirmişdir: «Bunun qarantı Azərbaycan dövlətidir, Azərbaycan xalqıdır. Biz dünyanın müxtəlif yerlərində baş verən xoşagəlməz hadisələri təhlil edərkən öz siyasətimizi bundan sonra daha da inamla aparmalıyıq. Azərbaycan vətəndaşları təhlükəsizlik şəraitində yaşayırlar, yaşayacaqlar. Azərbaycanda ictimai-siyasi asayiş tam şəkildə təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bu əsas şərtlər imkan verir ki, biz gələcəyimizi planlaşdıraq, gələcəyə böyük nikbinliklə baxaq. Bu gün dinlərarası, millətlərarası dialoqdan söhbət açılanda hesab edirəm ki, ilk növbədə Azərbaycan göz önünə gəlir. Azərbaycanda isə dinlərarası dialoq çoxdan təmin edilibdir. Bu gün Azərbaycanda dinlərarası, millətlərarası dostluq, qardaşlıq meyilləri güclənir. Budur bizim üstünlüyümüz».

Prezident İlham Əliyev qeyd etmişdir ki, respublikamızda tolerantlığın güclənməsi, sivilizasiyalararası dialoqun genişlənməsi Azərbaycanın islam həmrəyliyinin mərkəzinə çevrilməsinə səbəb olmaqdadır: «Ölkəmizdə 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Yəni bu, nadir bir vəziyyətdir. Azərbaycan nəinki sivilizasiyalararası bir körpüdür, biz, eyni zamanda, öz əməyimizlə, siyasətimizlə müsbət meyillərin güclənməsinə təkan veririk. Ancaq burada da deyildiyi kimi, əfsuslar olsun ki, heç də hər yerdə belə deyildir. Dini ayrı-seçkilik müşahidə olunur, məzhəb davası aparılır. Bu, böyük fəlakətdir və uçuruma aparan yoldur. Biz çalışırıq, çalışmalıyıq öz səylərimizi daha da böyük dərəcədə qoyaq ki, dünyada meyillər müsbət istiqamətdə getsin. Burada şeyx həzrətlərinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Şeyx həzrətlərinin dünya dinlərarası dialoqun inkişafında böyük rolu, dünyada böyük hörməti vardır. Həm öz həmkarları ilə sıx əlaqələri, həm də ictimaiyyətdə çox böyük təşəbbüsləri vardır. Bu, əlbəttə ki, ölkəmiz üçün böyük üstünlükdür. Hesab edirəm ki, dinlərarası münasibətlərin sağlam zəmində təmin edilməsi üçün Azərbaycan təcrübəsi öyrənilməlidir və əminəm, öyrəniləcəkdir».

Dövlətimizin başçısı çıxışının sonunda bütün dünya müsəlmanlarını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbrik etmişdir.

# Yeni sement zavodunun açılış mərasimi olmuşdur

*Dövlətimizin başçısı mərasimdə iştirak etmişdir*

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunun ərazisində yerləşən «Norm» sement zavodunun açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, yeni zavodun inşası Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və rəqabətqabiliyyətli məhsul istehsal etmək baxımından mühüm əhəmiyyətə malikdir. Müəssisədə inşaat işlərini Çinin «CNBM» korporasiyasının «CTİEC» tikinti şirkəti həyata keçirmişdir. Zavodun tikintisi ilə yanaşı, müəssisənin yerləşdiyi ərazidə əsaslı infrastruktur yaradılmış, üçmərtəbəli inzibati bina, yeməkxana və tibb məntəqəsi tikilmişdir. Bu istehsal müəssisəsinin ərazisindən Bakı-Salyan şosesinə birləşən 10 kilometr uzunluğunda asfalt yol inşa edilmiş, yeni elektrik, su və qaz xətləri çəkilmiş, seldən mühafizə bəndləri, həmçinin zavodun elektrik təchizatının etibarlı təminatı üçün yarımstansiya inşa olunmuşdur.

Qeyd edilmişdir ki, «Norm» sement zavodu nəinki Azərbaycan, ümumilikdə Cənubi Qafqazda sement istehsalı ilə məşğul olan ən böyük müəssisədir. Zavodun konsepsiyası işlənib hazırlanarkən onun uzun illər boyu məhsuldar və səmərəli istismarını təmin etmək məqsədilə müasir avadanlıq və texnologiyalardan istifadə edilmişdir. Müəssisədə əsas istehsal nöqtələrində quraşdırılan kameralar vasitəsilə bütün prosesə mərkəzdən nəzarət olunur. İstehsal xətti boyu xüsusi avadanlığın tətbiqi və işıqlandırıcı cihazların örtüklə təmin edilməsi səs və işıq kimi təsirlərin qarşısının alınmasını təmin edir. Zavodun işə düşməsi həm də yeni iş yerlərinin açılması baxımından böyük əhəmiyyət kəsb edir. Hazırda müəssisədə 350 nəfər çalışır. Daha 150 nəfər isə xammal yataqlarında və digər köməkçi sahələrdə işlə təmin olunmuşdur.

Bildirilmişdir ki, «Norm» şirkətinin beynəlxalq əlaqələri də genişdir. Şirkət Almaniya Sement İstehsalçıları Assosiasiyası ilə sıx əməkdaşlıq edir. Assosiasiya mütəxəssisləri tərəfindən zavodda texnoloji prosesin monitorinqi aparılır. Hazır məhsul və xammal nümunələri Assosiasiyanın Düsseldorfdakı laboratoriyasında mütəmadi sınaqdan keçirilir. Zavodda istehsal olunan bütün məhsullara Almaniya Sement İstehsalçıları Assosiasiyasının sertifikatı verilmişdir. Şirkət Avropa Sement Tədqiqatları Akademiyasının da həqiqi üzvüdür.

Prezident İlham Əliyev zavodu işə salmış, müəssisənin kollektivlə görüşmüşdür.

2 Qeyri-neft vergi daxilolmalarının həcmi artıb

3 Beynəlxalq təcrübənin tətbiqi Vergilər Nazirliyinin fəaliyyətinin prioritet sahələrindəndir

4 Tədris Mərkəzi fəaliyyətini müasir tələblər çərçivəsində qurur

5 "ASAN xidmət" – şəffaflığa təminat, vətəndaş məmnunluğu

# Borclu vergi ödəyicilərinin sayı azalır

*2014-cü ilin 6 ayı ərzində vergi ödəyicilərinin dövlət büdcəsinə olan borc məbləği cari ilin əvvəli ilə müqayisədə 6,7 faiz, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 15 faiz azalmışdır. Bu ilin 6 ayı ərzində ümumilikdə 113 min 242 borclu vergi ödəyicisinin vergi borclarının tamamilə ləğv edilməsinə nail olunmuş, 2014-cü il 1 iyul tarixinə borclu vergi ödəyicilərinin ümumi vergi ödəyicilərində xüsusi çəkisi 4,8 faiz təşkil etmişdir.*

Bu ilin ilk yarımilliyində vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən 33 min 765 sayda əmlakın siyahıya alınması barədə qərar açılmış, bu qərarların 73,8 faizi borclar ləğv edildiyi üçün bağlanılmış, siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərracda satılması məqsədilə məhkəmələrə verilmiş iddia ərizələri üzrə 363 sayda 452,9 min manat məbləğində məhkəmə qətnamələri qəbul olunmuşdur. Hesabat dövründə əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 27,8 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Fiziki şəxslərin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi prosesi davam etdirilmişdir. Görülmüş tədbirlər nəticəsində bu cür nəqliyyat vasitələri müəyyən edilən 8 min 940 vergi ödəyicisinin 1.855,6 min manat məbləğində borc məbləğinin dövlət büdcəsinə alınması təmin edilmiş, 11 vergi ödəyicisinin nəqliyyat vasitələri siyahıya alınmış, 254 vergi ödəyicisi tərəfindən nəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün üzərlərinə həbs qoyulmaqla, onların cərimə meydançalarına yerləşdirilməsi məqsədilə məhkəmələr tərəfindən qərarlar qəbul edilmişdir.

Hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən borclu fiziki şəxslərin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində 612 fiziki şəxs üzrə 272,3 min manat məbləğində borcun dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

35 min 653 borclu vergi ödəyicisinin borclarının onların milli və ya xarici valyutada cari və digər hesablarından tutulması məqsədilə banklara və ya digər kredit təşkilatlarına 380 min 284 icra (ödəniş) sənədi olan sərəncam verilmişdir.

Vergi orqanları tərəfindən 604 borclu fiziki şəxsin ölkədən getmə hüququnun məhdudlaşdırılması, habelə kiçik həcmdə borcları olan 1739 vergi ödəyicisinin borclarının tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə aidiyyəti üzrə icra məmurlarına müraciətlər edilmişdir.

Xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsindən yayındırdığına görə ümumilikdə 348 vergi ödəyicisi üzrə 10,6 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

*Hesabat dövründə əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 27,8 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir*

# Beynəlxalq səviyyəli seminar

*8-10 iyul 2014-cü il tarixlərində Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin (ITIC) və Vyana Biznes və İqtisadiyyat Universitetinin təşkilatçılığı ilə 10-cu illik Avrasiya Maliyyə Ekspertlərinin Seminarı keçirilmişdir.*

ITIC vergiqoymada ən yaxşı təcrübə haqqında informasiya mübadiləsinin və investisiya siyasətinin mərkəzi kimi çıxış edir. Təşkilatın əsas məqsədi tədris mərkəzi kimi keçid iqtisadiyyatında inkişaf edən ölkələrdə investisiya iqlimini yaxşılaşdırmaq, biznesin və iqtisadi çiçəklənmənin inkişafını stimullaşdırmaqdır.

Seminarda maliyyə sistemlərinin problemləri, hökumətlərin rəqabət qabiliyyətliyinin və inkişaf strategiyalarının stimullaşdırılmasında vergilərin (fiskal siyasətin) rolu, həmçinin iqtisadi inteqrasiyanin fiskal parametrləri (o cümlədən vergi koordinasiyası və gömrük ittifaqları çərçivəsində təcrübə mübadiləsi), vergi islahatları və Avrasiyanin prioritetlərində vergilərin rolu, fiskal mübahisələrin minimuma endirilməsi və həlli əsas müzakirə mövzularından olmuşdur.

Azərbaycanı seminarda təmsil edən vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri Akif Musayev «Aktiv vergi siyasəti müasir dövrdə iqtisadiyyatın inkişafının əsas alətlərindən biri kimi» mövzusunda çıxış etmişdir. A.Musayevin vergi güzəştləri və azadolmaları, vergi stimullaşdırılmasnın vergi daxilolmalarına təsiri barəsində təqdimatı fəal müzakirələrlə müşayiət olunmuşdur.

## Vergi ödəyicilərinin nəzərinə!

***Əmək Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində müvafiq bildirişin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Həmin Qanunla əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.***

**Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmza olmalıdır. Vergi ödəyiciləri ASAN İmza sertifikatı üçün nömrəni Azərbaycanın hər üç mobil operatorunun nümayəndəliklərindən 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron informasiya sisteminə daxil edilə bilər.**

**Vergilər Nazirliyi vergi ödəyicilərinin nəzərinə çatdırır ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.**

***Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195» Çağrı Mərkəzindən əldə edə bilərsiniz.***

**VERGİLƏR NAZİRLİYİ**

# Qeyri-neft vergi daxilolmalarının həcmi artıb

Ölkəmizdə gedən sürətli inkişaf 2014-cü ilin birinci yarısında da davam edib və cari ilin 6 ayında ümumi daxili məhsulun (ÜDM) artımı 2,1 faiz, qeyri-neft sektorunun real artım tempi 7 faiz olub. Qeyri-neft sektorunun ÜDM-də payı 56,3 faizə çatıb.

Qeyri-neft sektorunun hesabına əldə edilən bu artım iqtisadiyyatın strukturunun keyfiyyət dəyişikliklərinə məruz qaldığını şərtləndirir. Bu tendensiya onu göstərir ki, iqtisadiyyatda güclü dinamika və şaxələnmə siyasətinin məntiqi nəticəsi olaraq, neftdənkənar sahələrin inkişafı davamlı xarakter daşıyır. Qeyri-neft sektorunda yüksək artım ümumilikdə ölkə üzrə vergi daxilolmalarının həcminə də mühüm təsir göstərib və hesabat dövründə Vergilər Nazirliyi tərəfindən proqnoza 104 faiz əməl edilib, qeyri-neft sektorundan büdcəyə daxil olmuş vəsait isə ötən ilin eyni dövrünə nisbətən 15 faiz artaraq ümumi daxilolmalarda payı 57,1 faizə çatıb.

İqtisadçı Aydın Hüseynovun sözlərinə görə, Azərbaycanın hazırkı inkişaf meyilləri və qarşıdakı üç ildə sosial-iqtisadi inkişaf göstəriciləri ilə bağlı proqnozlar iqtisadiyyatda əsas ağırlıq mərkəzinin qeyri-neft sektorunun üzərinə düşəcəyinə dair nikbin əsaslar yaradır. Qeyd olunduğuna görə, son 10 ildə Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoru 2,7 dəfə artıb. Son illərdə qeyri-neft sektoru həm də investisiyaların qoyulması baxımından da ön plana çıxmaqdadır. Ötən il Azərbaycan iqtisadiyyatına 25 milyard dollardan artıq investisiya qoyulub ki, bunun da 15 milyard dollardan çoxu qeyri-neft sektorunun payına düşür. Son illər vergi sisteminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi qeyri-neft sektorundan vergi daxilolmalarının həcminin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Dövlətin vergi siyasətinin səmərəliliyinin müəyyən edilməsində vergitutma elementlərinin müəyyən edilməsi, vergi güzəştlərinin tətbiqi, vergi ödəyicilərinin üzərinə düşən vergi yükünün azaldılması və vergi inzibatçılığının həyata keçirilməsinin rolu böyükdür.

A.Hüseynovun sözlərinə görə, hökumət qeyri-neft sektorunun inkişafı ilə bağlı strateji plan hazırlayıb və sənəddə adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artırılması kimi əsas hədəflər müəyyənləşdirilib. Bu hədəflərə çatmaq üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi ilə əlaqədar islahatlar həyata keçiriləcək. Bununla yanaşı, biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, innovasiya fəaliyyətinin və insan kapitalının inkişafının təmin edilməsi, institusional potensialın gücləndirilməsi kimi istiqamətlər də bu planın tərkib hissəsidir. Strateji planın əsas istiqamətlərindən biri də qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq, vergi daxilolmaları üzrə iqtisadi artıma nail olmaqdır. Bu məqsədlərə çatmaq üçün iqtisadi sistemin rəqabət qabiliyyətinin artırılması vasitəsilə vergi siyasətinin daha da təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində tədbirlər görülməsi nəzərdə tutulur. Təkcə 2014-cü ilin büdcə layihəsinin gəlirlərlə bağlı təsnifatında vergi orqanları tərəfindən əlavə olaraq 700 milyon manat vəsait toplanması əksini tapıb. Eyni zamanda, gömrük orqanları tərəfindən 101 milyon, büdcə təşkilatları tərəfindən isə 390 milyon manat büdcədənkənar vəsaitlərin büdcəyə köçürülməsi nəzərdə tutulub.

Səmərəli vergi siyasətinin həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amillərdən biridir. Azərbaycanın ildən-ilə təkmilləşən vergi sistemi və tətbiq olunan vergi güzəştləri sahibkarlıq fəaliyyətinin genişlənməsi, investisiyaların təşviqi baxımından mühüm rol oynayıb. Son illərdə vergi dərəcələrinin aşağı salınması ilə bağlı görülən işlər qeyri-neft sektorunun inkişafına dəstək verib. Əlverişli investisiya mühitinin yaradılması və ölkədə iqtisadi fəallığın yüksəldilməsi vergi ödəyicilərinin sayının əhəmiyyətli dərəcədə artımına səbəb olub, vergi sisteminin texnoloji cəhətdən modernləşdirilməsi, inzibatçılığın keyfiyyətcə yaxşılaşması son 10 ildə vergi daxilolmalarının həcminin 10 dəfədən çox artmasına imkan yaradıb.

Bu və digər tədbirlər qeyri-neft sektorunda yüksək inkişaf meyilləri fonunda vergi bazasının daha da genişlənəcəyini şərtləndirir. Proqnozlara görə, 2020-ci ildə qeyri-neft sektorundan vergi daxilolmaları indiki dövrlə müqayisədə üç dəfəyədək çoxalacaq.

**E.CƏFƏRLİ**

*2014-cü ilin büdcə layihəsinin gəlirlərlə bağlı təsnifatında vergi orqanları tərəfindən əlavə olaraq 700 milyon manat vəsait toplanması əksini tapıb*

# Özəl vergi məsləhətçisi və onun funksiyaları

Dünyanın əksər ölkələrində özəl vergi məsləhəti xidmətindən geniş istifadə olunur. Bu xidmət vergi ödəyicilərinin işini xeyli sadələşdirməklə yanaşı, sahibkarların vergi problemlərinin həllində, vergilərin düzgün hesablanmasında və dövlət büdcəsinə ödəmələrin vaxtlı-vaxtında həyata keçirilməsində məsləhətçi rolunu oynayır. Vergi məsləhəti peşəkar fəaliyyətin bir növü olaraq, sifarişçiyə (məsləhət alana) vergilər sahəsində qanunla tənzimlənən vəzifələrin yerinə yetirilməsi üçün yardımçı ola bilən xidmət növüdür.

### Vergi məsləhətçisinin göstərdiyi xidmətlər

Xeyli müddətdir özəl vergi məsləhətcisi kimi calışan Aslan Şükürov hesab edir ki, vergi məsləhətçisi yüksək səviyyəli hüquqi-iqtisadi biliklərə malik və xüsusi hazırlıq keçən mütəxəssis olmalıdır. Onun sözlərinə görə, vergi məsləhəti üzrə xidmətləri bir neçə istiqamətə ayırmaq olar: «Vergi məsləhəti, vergi ekspertizası, sənədlərin tərtib edilməsi, ödəyicinin maraqlarının təmsil olunması, cari vergilərin ödənilməsinin əlverişli yolları, vergi planlaşdırılması və s. Bu istiqamətlərin hər biri öz növbəsində müxtəlif xidmət növlərinə bölünə bilər. Sifarişçinin sualları vergi məsləhətçisi tərəfindən müxtəlif formalarda cavablandırılır. Məsələn, ekspress məsləhət, möhlətli cavab məsləhəti, yazılı və ya şifahi məsləhət və s. Adətən, vergi məsləhəti birdəfəlik məsləhətlər çərçivəsində həyata keçirilməklə, vergi məsləhətçisinin işinin əsasını təşkil edir. Ekspress məsləhət vergi məsləhətinin çox çətin növüdür. Çünki sifarişçinin hansı suallarla müraciət edəcəyi əvvəlcədən məlum olmur. Burada suallar qısa formada və sifarişçinin haqqını ödədiyi zaman kəsiyində cavablandırılmalıdır. Belə bir rejimdə böyuk təcrübəyə və informasiya bazasına, həmçinin sıx qarşılıqlı əlaqəyə malik olan məsləhətçilər işləyə bilirlər».

Bundan başqa, həlli çətin olan, ciddi qanunvericilik qaydalarına əsaslanan sualları cavablandırmaq üçün möhlətli məsləhətlərdən istifadə etmək lazım gəlir. Aslan Şükürovun fikrincə, belə formanın tətbiqi zamanı vergi məsləhətçisinin ixtiyarında düşünmək, ekspertlərin rəyini öyrənmək, qanunvericiliyi araşdırmaq üçün kifayət qədər vaxt olur.

Bəzən sifarişçi vergi məsləhətçisindən ona yazılı cavab verməyi xahiş edir. Belə bir hal sifarişçinin vergi orqanları ilə mübahisələri zamanı yaranır və məsləhətçinin yazılı rəyi ekspert rəyinin funksiyasını yerinə yetirir və yaxud sifarişçi bütün hüquqi məsuliyyəti vergi məsləhətçisinin üzərinə qoymağa çalışır. Vergi ekspertizası sifarişçinin tələbi əsasında, vergiqoymanın nəticələrini və əlverişli vergi mühütini öyrənmək üçün müəyyən bir sahənin (bəyannamələrin, təsərrüfat əməliyyatlarının və s.) təftişinə yönəlmiş ardıcıl iş və tədbirlərdən ibarətdir. Buraya vergi auditi, sənədlərin vergi ekspertizası (müqavilələr, bəyannamələr, ilkin uçot sənədləri),vergi yoxlamaları aktları üzrə iş, sazişlər bağlanarkən sifarişçinin vergi öhdəliyinin qiymətləndirilməsi daxildir.

Göründüyü kimi, vergi ekspertizası üzrə sadalanan istiqamətlər çərçivəsində vergi məsləhətçisi işin vəziyyəti haqqında əsaslandırılmış qiymət verə bilən peşəkar ekspert kimi çıxış edir. Aslan Şükürovun sözlərinə görə, vergi ekspertizası sifarişçiyə problemləri, nöqsanları üzə çıxarmaq, vergi ödəyən zaman əlverişli yollardan istifadə etmək imkanı verir. Məsələn, vergi auditi vergilərin nə dərəcədə düzgün və vaxtında ödənilməsi haqqında məlumat verir. Vergi öhdəliklərinin qiymətləndirilməsi konkret təsərrüfat əməliyyatlarının və sazişlərin vergiyə cəlb edilməsinin müxtəlif variantlarından ibarətdir. Bir çox sahibkarlar vergi qanunvericiliyinin bütün mürəkkəbliyini nəzərə alaraq vergilərin ödənilməsi işini məsləhətçilərə tapşırırlar.

Mütəxəssis bildirdi ki, şifarişçi ilə məsləhətçi arasında olan münasibətlər müqavilə yolu ilə rəsmiləşdirlir. Sifarişçi tərəfindən verilən tapşırığın məzmunundan və məsləhətin istiqamətindən asılı olaraq, müqavilələr üç müxtəlif forma - birdəfəlik, abonent və layihə müqaviləsi əsasında bağlanılır.

Birdəfəlik müqavilə tərəflər arasındakı görüş üçün nəzərdə tutulmaqla, sifarişçinin konkret sualı vergi məsləhətçisi tərəfindən cavablandırıldığı halda bağlanılır. Abunə müqaviləsi isə tərəflər arasında müəyyən bir müddət üçün bağlanılır ki, bu zaman kəsiyində də (hər gün, həftədə bir dəfə və s.) məsləhətçi müqavilə şərtlərinə uyğun olaraq sifarişçinin suallarını cavablandırır.

### Beynəlxalq təcrübə

Bəzi ölkələrin təcrübəsində ilkin dövrlərdə vergi məsləhətçilərinin funksiyalarını vəkillər həyata keçirmişlər. Onlar, əsasən, öz sifarişçilərinə mirasların və hədiyyələrin bağışlanması məsələləri ilə əlaqədar məsləhətlər verirmişlər.

Vergi məsləhətçisi əksər dünya ölkələrində vergi orqanlarının işini yüngülləşdirməklə yanaşı, dövlət orqanları ilə vətəndaşlar arasında körpü rolunda çıxış edir.

Rusiya Federasiyasında belə bir institut son on ildə formalaşmağa başlayıb. İlk vaxtlarda bu məsləhət Rusiyanın Vergilər Nazirliyi və onun tədris mərkəzi tərəfindən həyata keçirilirdi.

Qazaxıstanda özəl vergi məsləhəti son illər xeyli inkişaf edib və təşkilatlanma dövrünü keçib. Hətta bu ölkədə 2002-ci ilin mart ayında ictimai birlik kimi Vergi Məsləhətçiləri Palatası təsis olunub. Hazırda palatanın özəyini yüksək səviyyəli mütəxəssislər təşkil etməklə yanaşı, onun idarəetmə orqanına 12 şura üzvü daxildir.

Almaniyada vergi məsləhətçilərinin xidmətindən təxminən dörd milyon vətəndaş sistemli şəkildə istifadə edir, iki milyon nəfər isə vergi birliklərinin və onun assosiasiyalarının üzvüdür.

**Rəşad SADIQOV**

# Beynəlxalq təcrübənin tətbiqi Vergilər Nazirliyinin fəaliyyətinin prioritet sahələrindəndir



*Bir müddət əvvəl Azərbaycanın Vergilər Nazirliyi ikinci dəfə IOTA-nın (Avropadaxili Vergi Administrasiyaları Təşkilatı) İcraiyyə Şurasına üzv seçilib. Vergilər Nazirliyi MDB ölkələrinin vergi xidmətləri arasında bu mötəbər qurumun İcraiyyə Şurasına üzv seçilmiş ilk vergi administrasiyasıdır. IOTA-nın son Baş Assambleyasında iştirak etmiş vergilər nazirinin müşaviri Ələkbər Məmmədovla söhbətimizə də elə bu əlamətdar hadisə ilə başladıq.*

**- Vergilər Nazirliyinin IOTA-nın İcraiyyə Şurasına ikinci dəfə üzv seçilməsi hansı cəhətdən faydalıdır?**

- Azərbaycan Vergilər Nazirliyinin IOTA-nın İcraiyyə Şurasına yenidən növbəti birillik müddət üçün üzv seçilməsi əlamətdar bir hadisədir. Bu təşkilat Avropa Birliyi ölkələrinin vergi sahəsində ən vacib strukturlarından biridir. Azərbaycan 2002-ci ildən IOTA-nın üzvüdür və bu təşkilatla sıx əməkdaşlıq edir. Bir qayda olaraq, belə nüfuzlu qurumlarda İcraiyyə Şurasına üzvlər Avropa Birliyinin aparıcı dövlətlərindən təşkil olunur. Buna səbəb belə nüfuzlu qurumların idarə olunması və menecmentində AB-nin mənafelərinin qorunması, eyni zamanda həmin dövlətlərdə formalaşmış böyük təcrübələrin IOTA-ya üzv ölkələrə ötürülməsidir.

Azərbaycanın İcraiyyə Şurasında təmsil olunması, əslində, ölkəmizə göstərilmiş böyük bir etimad, IOTA ilə uzun müddət davam edən səmərəli əməkdaşlığa verilən bir qiymətdir. Azərbaycanın vergi xidməti bu təşkilatın, demək olar ki, bütün tədbirlərində fəal iştirak edir və beynəlxalq təcrübənin öyrənilməsi, onun tətbiqinin genişləndirilməsi istiqamətində daim iş aparır. Təsadüfi deyildir ki, bu ilin may ayında İcraiyyə Şurasının 92-ci iclası Bakıda təşkil edilmişdi. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Niderland, Avstriya, İrlandiya, İspaniya, Finlandiya, Fransa, Çex Respublikası və Rumıniyanın vergi orqanları ilə birlikdə İcraiyyə Şurasının üzvü seçildi. Bu, bir daha ölkəmizin Avropanın aparıcı strukturlarında mühüm vəzifələrin öhdəsindən gəlməsinin bariz sübutudur.

**- Ələkbər müəllim, mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi bu gün vergi xidmətləri qarşısında duran aktual məsələlərdən biridir. Bu gün Vergilər Nazirliyi beynəlxalq əlaqələrin genişləndirilməsi və müasir beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində hansı işlər görür?**

- Bildiyiniz kimi, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası bir çox dövlət qurumları kimi, Vergilər Nazirliyi qarşısında da mühüm vəzifələr müəyyən etmişdir. Bu konseptual sənəddən irəli gələn məsələləri həll etmək məqsədilə Vergilər Nazirliyində «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan» və «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» təsdiq edilmişdir. Bu iki mühüm sənəd vergi xidmətinin yaxın perspektivdə inkişaf istiqamətlərini, eyni zamanda beynəlxalq sahədə fəaliyyətinin növbəti illər üçün əsas hədəflərini müəyyən edir.

Vergilər Nazirliyində beynəlxalq təcrübənin öyrənilməsi daim ön planda olsa da, milli vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində işlərin daha da sistemləşdirilməsi məqsədilə Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin tərkibində «Xarici ölkələrin vergi sisteminin tədqiqi» şöbəsi yaradılmışdır. Hazırda həmin şöbə xarici ölkələrin vergi sisteminin araşdırılması və zəruri təcrübələrin icmallaşdırılması istiqamətində zəruri işlər görür.

Bundan başqa, vergi qanunvericiliyini, xarici ölkələrin vergi təcrübəsini, Vergilər Nazirliyi əməkdaşlarının xarici ezamiyyə hesabatlarını, beynəlxalq təcrübənin araşdırılması istiqamətində müxtəlif icmal hesabatları və digər zəruri materialları əhatə edən çoxfunksiyalı imkanlara malik geniş məlumat bazasını əhatə edən elektron kitabxana da yaradılmışdır.

Hazırda milli vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Almaniyanın GİZ təşkilatı ilə də sıx əməkdaşlıq edilir. Əlbəttə, qarşılıqlı səfərlər, təcrübə mübadiləsi konkret hədəflərə yönəlir. Bu səfərlər sadəcə tanışlıq xarakteri daşımır, tətbiq olunan mütərəqqi təcrübə əvvəlcədən araşdırılır, sonra həmin məsələ ilə bağlı işçi səfərlər reallaşdırılır.

Portuqaliya Vergi və Gömrük İdarəsi ilə aparılan təcrübə mübadiləsi nəticəsində vergi ödəyiciləri ilə əlaqənin idarə edilməsi sisteminin yaradılması, bütün vasitələrlə vergi ödəyicilərinə göstərilən xidmətin vahid sistemdə aparılması geniş öyrənilib və nəticə olaraq vergi ödəyicilərinə xidmət mərkəzlərində tətbiq olunan AVİS-in xidmət alt sistemində belə bir sistem yaradılıb. Yaxın gələcəkdə Vergilər Nazirliyinin Çağrı Mərkəzinin və digər xidmət kanallarının da bu sistemə inteqrasiyası həyata keçiriləcək. Portuqaliya təcrübəsindən yararlandığımız daha bir məsələ İnternet Vergi İdarəsində fərdi vergi təqviminin yaradılması ilə bağlıdır. Hazırda bu məqsədlə icraçı şirkət tərəfindən proqramlaşdırma işləri həyata keçirilir. İsveç Krallığının Vergi Agentliyi ilə apardığımız təcrübə mübadiləsi prosesində həmin ölkədə vergi ödəyicilərinə xidmət sahəsində tətbiq olunan vahid xidmət mərkəzi ideyasından ötən il yeni Vergi ödəyicilərinə xidmət mərkəzinin yaradılmasında geniş istifadə edildi.

Türkiyə Respublikasının Gəlirlər İdarəsi Başkanlığı ilə əməkdaşlıq prosesində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin fəaliyyəti tamamilə yenidən qurulub və tətbiq edilmiş qabaqcıl təcrübə nəticəsində mərkəzin fəaliyyəti EN 15838 standartlarına uyğunluq sertifikatı alıb, bununla yanaşı, ikitərəfli SMS xidməti yaradılıb.

İntensiv əməkdaşlıq etdiyimiz Niderland Krallığının Vergi və Gömrük Administrasiyası ilə birlikdə ölkəmizin vergi xidməti üçün mühüm layihələrdən biri olan elektron audit layihəsi reallaşdırılıb. Bundan başqa, yaxın perspektivdə tətbiqini nəzərdə tutduğumuz maraqlı bir layihə üzərində çalışırıq. Bu, Çağrı Mərkəzi vasitəsilə əməliyyatlar aparmaq imkanının yaradılmasıdır. Həmin layihəyə əsasən, sadələşdirilmiş verginin bəyannaməsi ASAN imzası olan vergi ödəyicilərinin əvəzinə Çağrı Mərkəzinin əməkdaşları tərəfindən göndəriləcək. Bu məqsədlə hazırlanmış proqram təminatı hazırda test mərhələsindədir.

**- Son illər Azərbaycanın vergi xidməti beynəlxalq təşkilatlarla intensiv əməkdaşlıq edir. Bu, xüsusilə də ölkəmizdə vergi sahəsində keçirilən tədbirlərin sayının artmasında özünü göstərir. Çoxtərəfli əməkdaşlığın bugünkü səviyyəsini necə qiymətləndirərdiniz?**

- Əlbəttə, nüfuzlu beynəlxalq təşkilatların tədbirlərinə ev sahibliyi etməsi ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisi olmaqla yanaşı, eyni zamanda respublikamızın iqtisadi sahədə əldə etdiyi uğurların təbliği baxımından çox vacibdir.

Vergilər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə IOTA, OECD, IACA və s. kimi təşkilatların forum, seminar və iclasları uğurla keçirilir. Eyni zamanda, 2012-ci ildən başlayaraq, hər ilin fevral ayında vergi orqanı əməkdaşlarının peşə bayramı ərəfəsində Bakıda «Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda beynəlxalq vergi forumları təşkil olunur. Bu forumlar vergi sahəsində qarşıda duran bir çox qlobal məsələlərin müzakirə edildiyi mühüm bir tərəfdaşlıq platformasına çevrilib.

Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, eləcə də donor təşkilatlar - ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə əməkdaşlıq nəticəsində müxtəlif layihələr həyata keçirilməkdədir.

Avropa İttifaqının Tvinninq və TAIEX alətləri çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı Tvinninq layihəsi 2011-2013-cü illərdə həyata keçirilib, «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» və «Müasir vergi ödəyicilərinə xidmət standartları, optimal idarəetmə modeli və qiymətləndirmə sahəsində islahatlara dəstək» adlı Tvinninq layihələrinin tətbiqinə dair isə müvafiq prosedurlara başlanılıb.

Vergilər Nazirliyində mövcud olan fəaliyyətin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə bir müddət öncə Avropa İttifaqının ekspertlərinin iştirakı ilə Aİ-nin texniki yardim aləti olan TAIEX proqramı çərçivəsində Ekspert Missiyası təşkil olunub. Hazırda ekspertlər tərəfindən hazırlanmış hesabat əsas götürülməklə, Vergilər Nazirliyində bu sistemin təkmilləşdirilməsi ilə bağlı təkliflər paketi hazırlanır.

Bildiyiniz kimi, Azərbaycan 2013-cü ilin fevralında OECD-nin Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumuna üzv qəbul edilmişdir və bizim mütəxəssislər həmin forumlarda fəal iştirak edirlər. Bu il mayın 23-də Parisdə «Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının çoxtərəfli Konvensiyasına dəyişiklik edilməsi haqqında» Protokolun imzalanması ölkəmizin bank sirrini aradan qaldırmaqla şəffaflığa tərəfdar olduğunu bir daha nümayiş etdirmiş, eyni zamanda artıq bu sazişi imzalamış 63 dövlətlə geniş əməkdaşlıq imkanı əldə edilmişdir.

Bundan başqa, çoxformatlı qurumlarla da ciddi iş aparılır. Vergilər Nazirliyi MDB ölkələrinin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası və vergi (maliyyə) təhqiqat orqanları rəhbərlərinin Koordinasiya Şurasının işində fəal iştirak edir. Korrupsiyaya qarşı mübarizə sahəsində Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə sıx əlaqələr qurulub. Ölkəmiz bu qurumun Baş Assambleyasının bürosuna üzv seçilib. Vergilər Nazirliyi Avropa Kommersiya Qeydiyyatçıları Forumunun (ECRF) və Korporativ Qeydiyyatçılar Forumunun üzvüdür, həmçinin İslam Ölkələrinin Vergi Orqanları Assosiasiyası (ATAIC) ilə müşahidəçi statusunda əməkdaşlıq edir.

Yeri gəlmişkən, qeyd edim ki, 2013-cü ildə BMT-nin vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin yeni tərkibi təsdiqlənərkən təşkilatın baş katibinin qərarı ilə dünyanın müxtəlif regionlarını təmsil edən namizədlər arasından seçilmiş 25 ekspert sırasında Vergilər Nazirliyinin əməkdaşı da vardır.

**- İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlərin bağlanması sahəsində işlər nə yerdədir? Sizcə, mövcud sazişlər şəbəkəsi ölkəmizin əsas tərəfdaşlarını əhatə edirmi?**

- Ölkəmizdə investisiya mühitini şərtləndirən mühüm məsələlərdən biri də «Gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması» haqqında sazişlərin mövcudluğudur. Artıq Azərbaycan Respublikası əksər Avropa Birliyi, Cənub-Şərqi Asiya, Yaxın Şərq ölkələri, Kanada, Yaponiya və MDB üzvü olan dövlətlər də daxil olmaqla, 48 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalamış, onlardan 43-ü qüvvədədir, 6 ölkə ilə sazişlərin mətnləri üzrə mütəxəssislər səviyyəsində razılıq əldə edilmiş, 10 ölkə ilə layihələrin razılaşdırılması üzrə müzakirələr davam etməkdədir. Hesab edirəm ki, hazırkı vəziyyətdə ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər ölkəmizin əsas ticarət tərəfdaşlarını əhatə edir. Hazırda digər dövlətlərlə vergi məsələlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayan məlumat mübadiləsi və vergi orqanları arasında əməkdaşlıq haqqında sazişlər şəbəkəsi də genişlənməkdədir.

Azərbaycan Respublikası 10 ölkə ilə (Gürcüstan, Özbəkistan, Qazaxıstan, Rusiya, Litva, Moldova, Belarus, Latviya, Qırğızıstan, Argentina) ikitərəfli və 2 çoxtərəfli «Vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» sazişlər, 7 ölkə ilə (Gürcüstan, Özbəkistan, Qazaxıstan, Rusiya, Litva, Moldova, Polşa) ikitərəfli və 1 çoxtərəfli «Vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında» sazişlər və 8 ölkə ilə (Gürcüstan, Litva, Estoniya, Macarıstan, Fransa, Çexiya, Ukrayna, Türkiyə) ikitərəfli «Əməkdaşlıq haqqında» sazişlər imzalayıb.

Bundan əlavə, Niderland Krallığının Maliyyə Nazirliyi ilə vergi məsələləri üzrə məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu layihəsi qarşı tərəflə razılaşdırılıb, Türkmənistan Baş Dövlət Vergi Xidməti ilə əməkdaşlığa dair Memorandum layihəsi üzrə dövlətdaxili prosedurlar tamamlanıb, Serbiya ilə analoji saziş layihəsi razılaşdırılması üçün qarşı tərəfə göndərilib. Bunlarla yanaşı, OECD tərəfindən hazırlanmış «Azərbaycan Respublikası Vergilər Nazirliyi və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı arasında əməkdaşlıq fəaliyyəti haqqında Saziş» layihəsinin razılaşdırılması üzrə müzakirələr davam etməkdədir.

Yuxarıda qeyd olunan sazişlər əsasında digər ölkələrin səlahiyyətli orqanları ilə səmərəli məlumat mübadiləsi həyata keçirilir.

Bildiyiniz kimi, ABŞ-da 2010-cu ildə vergidən yayınma hallarının qarşısının alınması məqsədilə qəbul edilmiş və FATCA adlandırılan Xarici hesablar üzrə vergi əməletməsi Aktı cari ilin iyul ayından qüvvəyə minmişdir. Həmin sənəddə müvafiq məlumatları təqdim etməyən xarici maliyyə institutlarına ağır sanksiyalar nəzərdə tutulur. Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan və ABŞ hökumətlərinin birgə səyləri nəticəsində maliyyə hesabları haqqında məlumatların qarşılıqlı mübadiləsinə dair hökumətlərarası saziş layihəsi üzrə artıq razılıq əldə edilmişdir.

Əlbəttə, dünyada baş verən qlobal tendensiyalar və beynəlxalq inteqrasiyanın dərinləşməsi bilik menecmentinə əsaslanan, texnoloji baxımdan daim təkmilləşən bir vergi sisteminin yaradılmasını zəruri edir. Belə bir sistemin qurulması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi mütərəqqi islahatlar zamanla ayaqlaşan mühüm prinsiplərə söykənir. Bu prinsiplər bütövlükdə milli vergi sisteminin inkişafının elmi əsaslar üzərindən aparıldığının, strateji təhlil və innovasiyalardan istifadəyə verilən önəmin əhəmiyyətini bir daha göstərir. Hesab edirəm ki, Vergilər Nazirliyinin nümayiş etdirdiyi belə yanaşma milli vergi xidmətinin daim inkişafın ön cərgəsində olduğuna dəlalət edir.

*Vergilər Nazirliyinin növbəti dəfə IOTA-nın Baş Assambleyasına üzv seçilməsi ölkəmizin Avropanın aparıcı strukturlarında mühüm vəzifələrin öhdəsindən layiqincə gəlməsinin bariz sübutudur*



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergitutmada səmərəlilik

İstənilən dövlətin vergi sisteminin vəziyyəti ölkənin milli, tarixi, iqtisadi inkişaf xüsusiyyətləri ilə müəyyən olunur. Buna görə də ayrı-ayrı ölkələrin vergi sistemlərinin müqayisəli şəkildə qiymətləndirilməsi zamanı hər hansı vahid bir göstəricidən istifadə olunması çətin məsələdir. Lakin ölkənin vergi sisteminin keyfiyyətini «vergitutmanın səmərəliliyi» deyilən bir göstərici əsasında müəyyən etmək mümkündür.

Ümumiyyətlə, vergitutmanın səmərəliliyi həm iqtisadi, həm də sosial baxımdan müəyyən olunur. İqtisadi səmərə dedikdə, istehsal və istehlak həcmlərinin, eləcə də vergi daxilolmalarının artımı və istehsal xərclərinin aşağı düşməsi başa düşülür. Sosial səmərə dedikdə isə insanların həyat səviyyəsi, cəmiyyətin bütün üzvlərinin maddi vəziyyəti, mədəniyyətin səviyyəsi, insanlarda sərbəst vaxtın artması, həmçinin siyasi və digər nailiyyətlərin əldə olunması nəzərdə tutulur. Ümumilikdə götürdükdə, sosial-iqtisadi səmərə əldə olunmuş ümumi səmərənin onun əldə olunmasına çəkilən xərclərə nisbəti kimi müəyyən edilir.

Vergilərin yığılmasına çəkilən inzibati xərclərin aşağı salınması məsələsi vaxtilə məşhur iqtisadçı Adam Smit tərəfindən vergitutmanın prinsiplərindən biri kimi qeyd olunmuşdur. Həmin prinsipə görə, vergitutmada əldə edilən səmərə dövlətin xalis gəliri olmaqla vergi daxilolmaları ilə vergilərin yığılmasına çəkilən xərclərin fərqi kimi müəyyən edilir.

*Vergitutmanın səmərəliliyinin əsas mahiyyətlərindən biri də dövlət və təsərrüfat subyektləri arasında maraqların toqquşmasına yol verilməməsidir*

İqtisadi ədəbiyyatda vergitutmada iqtisadi səmərənin əsas tərkib elementləri kimi aşağıdakılar qəbul edilir:

- ♦ *əlavə yaradılmış dəyərdən verginin tutulması əmsalı;*
- ♦ *fəaliyyət sahələri üzrə tətbiq olunan vergi dərəcələrinin optimal vergi dərəcələri ilə müqayisəliliyi;*
- ♦ *tutulmuş mənfəət vergisi ilə investisiya qoyuluşlarının müqayisəli dinamikası;*
- ♦ *vergi ödəmələrinin güzəşt və subsidiyalar şəklində büdcədən qaytarılması əmsalı;*
- ♦ *istehsalın və biznes fəaliyyətinin vergi stimullaşdırılması göstəriciləri;*
- ♦ *vergi tənzimlənməsinin kəmiyyət və keyfiyyət göstəriciləri;*
- ♦ *vergi inzibatçılığının göstəriciləri (vergi xidməti orqanlarının işinin səmərəliliyi, vergi borclarının azalmasına yönəldilmiş işlərin nəticəsi) və s.*

Vergitutmadan əldə olunan sosial səmərənin nəticələri kimi isə bütün vergilər ödənildikdən sonra əhalidə qalan xalis gəlirin artmasını, cəmiyyətin bütün üzvlərinin maddi rifah halının yaxşılaşmasını, vergi mədəniyyətinin yüksəlməsini və s. göstərmək olar.

Vergi sisteminin səmərəliliyindən danışarkən onun bazar iqtisadiyyatı ilə sıx əlaqədə olmasına diqqət yetirilməli və mövcud vergitutmanın səmərəli olub-olmaması məsələsinə aydınlıq gətirilməsi üçün onun qiymətləndirilməsinə kompleks şəkildə yanaşmaq lazımdır. Bu zaman vergilərin təsiri ilə iqtisadiyyatda və cəmiyyətdə əldə olunan birbaşa və ya dolayısı səmərə həm dövlət, həm iqtisadiyyatın ayrı-ayrı sahələri, həm müxtəlif təşkilati-hüquqi formada olan subyektlər, həm də əhali səviyyəsində qiymətləndirilməlidir. Vergi səmərəliliyinin qiymətləndirilməsini istər natura, istərsə də qiymət ölçülərində, habelə həqiqi və nisbi şəkildə aparmaq olar.

Qeyd etmək lazımdır ki, vergitutmanın səmərəliliyinin əsas mahiyyətlərindən biri də dövlət və təsərrüfat subyektləri arasında maraqların toqquşmasına yol verilməməsidir. Buna görə də səmərəli vergitutma mexanizminin yaradılmasında əsas diqqət dövlət üçün büdcə gəlirlərinin artmasına, vergitutma bazasının genişləndirilməsinə, təsərrüfat subyektləri üçün fəaliyyətdən daha çox gəlirlərin əldə olunmasına və vergi yükünün aşağı salınmasına, əhali üçün isə dövlət tərəfindən müəyyən olunmuş vergilər ödənildikdən sonra daha çox gəlirlərin əldə edilməsinə yönəldilməlidir.

Vergitutmanın səmərəliliyi barədə yuxarıda qeyd olunanlar aşağıdakı prinsipləri vurğulamağa əsas verir:

- ♦ *vergilər iqtisadi qərarların qəbul olunmasına maneçilik törətməməli və ya onun təsiri minimum olmalıdır;*
- ♦ *vergi sistemi ölkə iqtisadiyyatının inkişafına yönəldilmiş siyasətə xidmət etməlidir;*
- ♦ *ölkənin vahid məkanını və vergi sistemini pozan vergilərin tətbiqinə yol verilməməlidir;*
- ♦ *vergi sistemi vergitutma bazalarının ölkədən çıxarılmasının qarşısını almalıdır;*
- ♦ *vergi qanunvericiliyinin birmənalı izahı təmin olunmalı və cəmiyyət tərəfindən başa düşülərək qəbul edilməlidir, yəni vergi ödəyicisinin ödəməli olduğu verginin dərəcəsi, hesablanma qaydası və ödəmə müddəti dəqiq müəyyən olunmalıdır;*
- ♦ *vergilərin yığılmasına və vergi aparatının saxlanılmasına dövlət tərəfindən çəkilən xərclərin maksimum səmərəliliyi təmin olunmalıdır.*

Bazar iqtisadiyyatı şəraitində vergilərin düzgün hesablanması, ödənilməsi ilə bağlı vergi ödəyiciləri ilə dövlət, o cümlədən vergi orqanları arasında yaranan münasibətlərdən irəli gələn, özünəməxsus vergi və vergi mexanizmləri ilə xarakterizə olunan xüsusi modelin yaradılmasına zərurət yaranır. Bu zaman vergi sisteminin əsas məqsədlərindən birinin dövlət büdcəsinin maliyyə vəsaitləri ilə təmin edilməsindən ibarət olmasına baxmayaraq, yaradılan model iqtisadi artım tempinin və istehsalın inkişafının təmin ediməsinə yönəldilməlidir. Eyni zamanda, yaradılan modelin əsas əlamətlərindən biri dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsinə çəkilən ibzibatçılıq xərclərinin aşağı salınmasından ibarət olmalıdır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmək müqaviləsi

***Əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə necə daxil edilməlidir?***

**Əvvəli ötən sayımızda**

İşəgötürən xidmətə daxil olduqda, sistem tərəfindən onun təkmil sertifikatına əsasən soyadı, adı, atasının adı, gücləndirilmiş elektron imza (hüquqi şəxslərlə münasibətdə möhür vurmaq səlahiyyəti olan) kartının nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) müəyyən edilir. İşəgötürən əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxiletmə səlahiyyətini etibar etdiyi şəxsin (şəxslərin) gücləndirilmiş elektron imza kartının nömrəsini, fərdi identifikasiya nömrəsini, səlahiyyətin etibar edilmə müddətini müəyyən edilmiş formada sistemə daxil edərək təsdiqləməlidir.

Bir şəxsə bir neçə işəgötürən tərəfindən əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi səlahiyyəti verildikdə, səlahiyyət verilən şəxsə sistem vasitəsilə müəyyən edilmiş siyahıda müvafiq işəgötürəni seçdikdən sonra əmək müqaviləsi bildirişinin qeydiyyatını aparmaq imkanı veriləcəkdir.

Qaydaların 4.1-ci bəndinə müvafiq olaraq, «Əmək müqaviləsinin bağlanılması ilə bağlı əmək müqaviləsi bildirişi» elektron informasiya sisteminə daxil edilərkən gücləndirilmiş elektron imzaya əsasən işəgötürən barəsində həmin bənddə qeyd edilən məlumatlar sistem tərəfindən avtomatik rejimdə müəyyən olunur və əmək müqaviləsi bildirişinə daxil edilir.

Qaydaların 4.2-ci bəndinə əsasən isə işçinin fərdi identifikasiya nömrəsi əmək müqaviləsi bildirişində müvafiq sahəyə daxil edilərkən istifadə olunan informasiya ehtiyatlarında ona aid məlumat aşkar olunduqda, həmin bənddə qeyd edilən məlumatlar sistem tərəfindən avtomatik rejimdə müəyyən edilir və əmək müqaviləsi bildirişində göstərilir.

Qaydaların 4.3-cü bəndinə müvafiq olaraq, sistem tərəfindən avtomatik rejimdə müəyyən edilən məlumatlarla yanaşı, əmək müqaviləsi bildirişinə avtomatik rejimdə daxil olunmayan həmin bənddə qeyd edilən məlumatlar daxil edilir.

Əmək müqaviləsinin bağlanılması ilə bağlı müəyyən məlumatlar elektron informasiya sistemi vasitəsilə əmək müqaviləsi bildirişinə daxil edildikdən sonra məlumat bazasında həmin Qaydaların 1 və 2 nömrəli əlavələrində müəyyən edilmiş formada yadda saxlanılır və bununla bağlı 1 (bir) iş günündən gec olmayaraq, sistem vasitəsilə işəgötürənə elektron qaydada həmin Qaydaların 6 nömrəli əlavəsində müəyyən edilmiş formada məlumat verilir. İşəgötürən bu məlumatı çap edərək, mühafizə edilən aidiyyəti əmək müqaviləsi ilə birlikdə 5 (beş) il müddətinə saxlanmasını təmin edir və işçinin müraciəti əsasında bildirişin və məlumatın surətini ona təqdim edir.

İşçinin onunla bağlı qeydiyyata alınmış müvafiq əmək müqaviləsi bildirişinin (bildirişlərinin) məlumatlarını real vaxt rejimində əldə etmək imkanları elektron informasiya sistemi vasitəsilə təmin olunur. Hər bir işçi onunla bağlı müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını «Elektron hökumət» portalının mövcud autentifikasiya vasitələrindən istifadə etməklə «Əmək müqaviləsi bildirişlərinin məlumatlarının işçilər tərəfindən əldə edilməsi» xidmətini seçərək, özü barədə müvafiq məlumatı əldə edə bilər.

# Tədris Mərkəzi fəaliyyətini müasir tələblər çərçivəsində qurur

2014-cü ilin birinci yarısında Vergilər Nazirliyinin Tədris Mərkəzində vergi orqanları əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi üçün sistemli, səmərəli və beynəlxalq təcrübəyə əsaslanan keyfiyyətli təhsilin təmin edilməsi istiqamətində bir sıra mühüm işlər yerinə yetirilmişdir. Qeyd olunan dövr ərzində Vergilər Nazirliyinin struktur vahidlərinin təklifləri əsasında illik tədris qrafiki tərtib edilmiş, ilkin hazırlıq və ixtisasartırma kurslarının, o cümlədən qısamüddətli təlimlərin məzmunu, istiqamətləri və tədris-mövzu planları və keçirilmə müddətləri müəyyənləşdirilmiş, mövcud qanunvericiliklərə və normativ-hüquqi aktlara edilən əlavə və dəyişikliklər nəzərə alınmışdır.

Vergilər nazirinin müvafiq əmrləri ilə dövlət vergi orqanlarının orta menecerlər və mütəxəssislər təlim qruplarına aid edilən əməkdaşları üçün ixtisasartırma təhsili üzrə müvafiq funksional istiqamətlərə uyğun tədris-mövzu planları yeni redaksiyada təsdiq edilmişdir. «Vergilər Nazirliyinin Telefon Məlumat Xidməti müfəttiş-operatorlarının illik bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsi Qaydaları»na və «Vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları»na uyğun olaraq Çağrı Mərkəzinin əməkdaşlarının və xidmət mərkəzlərinin təmsilçilərinin bilik və peşə hazırlığı səviyyəsinin qiymətləndirilməsi aparılmışdır. Hər hansı test bazasında praktiki biliklərin qiymətləndirilməsi ilə bağlı təkmilləşdirmələr aparılmışdır. Test bazasının məzmununun və keyfiyyətinin daha da təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin müvafiq funksional istiqamətləri üzrə mütəxəssislərinin iştirakı ilə baxışın keçirilməsi planlaşdırılmışdır.

Cari ilin birinci yarısında Mərkəz tərəfindən Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin «Faydalı» bölməsində «Vergi testi» alt bölməsindəki mövcud sual bazasının yenilənməsi üçün Vergi Məcəlləsinin ümumi və xüsusi hissələrini əhatə edən və ümumi sayı 1000 sualdan ibarət olan yeni testlər hazırlanmışdır. «Metodiki kabinetlərin və vergi tədris otaqlarının maddi-texniki təminatının və tədris-metodiki vəsaitlərə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə monitorinqin keçirilməsi Qaydaları» hazırlanmış və 2014-cü ildə keçiriləcək monitorinqin qrafiki müəyyən edilmişdir. Bununla bərabər, «Vergi orqanlarında insan resurslarının inkişafına dair 2014-cü il üçün Tədbirlər Planı»na uyğun olaraq, Tədris Mərkəzində AVİS-in «Tədris» modulunda «Anket» altmodulunun yeni layihəsi hazırlanmışdır.

Hazırda Tədris Mərkəzində Vergilər Nazirliyi əməkdaşlarının peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiq edilməsi üçün təlim materiallarının elektron bazasının yaradılması istiqamətində işlər həyata keçirilir. Azərbaycanın müxtəlif bölgələrində yerləşən təhsil müəssisələrində ticələri barədə aktlar tərtib edilmişdir.

Vergilər nazirinin «Vergilər Nazirliyinin 2014-cü il üçün illik tədris (təlim) qrafikinin təsdiq edilməsi barədə» 10 fevral 2014-cü il tarixli əmri ilə əməkdaşların peşə hazırlığının ilkin hazırlıq, ixtisasartırma və qısamüddətli təlim formalarından istifadə olunmaqla illik tədris (təlim) qrafiki təsdiq edilmişdir. Tədris qrafikində təlim müddəti 1-5 gün olan 27 təlim kursunun, 2,5 ay olan 4 ilkin hazırlıq kursunun və müxtəlif funksional fəaliyyət istiqamətlərini əhatə edən 15 ixtisasartırma kursunun keçirilməsi nəzərdə tutulmuşdur. Cari il iyulun 1-dək 2 ixtisasartırma kursunun, 4 ilkin hazırlıq kursunun və 16 mövzuda qısamüddətli təlimin keçirilməsi təmin olunmuşdur. Vergilər Nazirliyinin mütəxəssislər və orta menecerlər təlim qrupuna aid edilən əməkdaşları üçün «Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində illik təlim proqramı» əsasında əyani və distant təhsil sistemi tətbiq edilməklə ixtisasartırma kursları keçirilmişdir. Həmin kurslara Vergilər Nazirliyinin Çağrı Mərkəzinin və xidmət mərkəzlərinin əməkdaşları cəlb edilmişlər. Əyani təhsilalma forması tətbiq olunmaqla ixtisasartırma kurslarında 19 nəfər, distant təhsil sistemində 175 nəfər iştirak etmişdir.

Tədris Mərkəzi xarici təcrübənin öyrənilməsi sahəsində də bir sıra işlər görmüşdür. Cari ilin birinci yarısında Parisdə Fransanın İqtisadiyyat və Maliyyə Nazirliyinin




fənn üzrə bilik və peşə hazırlığı səviyyəsi qeyri-qənaətbəxş olan əməkdaşlar və təmsilçilər üçün fərdi illik treninq proqramları hazırlanmış və bu proqramlar əsasında təqvim ilinin birinci yarımilliyi ərzində Tədris Mərkəzi tərəfindən ənənəvi və distant tədris kursları təşkil edilmişdir.

Hesabat dövründə Tədris Mərkəzinin 2014-2015-ci illər üçün Tədris Proqramı hazırlanmışdır. İxtisasartırma və ilkin hazırlıq kursunun yekunu üzrə təşkil olunan imtahanların müvafiq təşkil olunmuş metodiki kabinetlərin və vergi-tədris otaqlarının maddi-texniki təminatının və tədris-metodiki vasitələrə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə Tədris Mərkəzinin əməkdaşları yerli vergi orqanlarının Vergi ödəyicilərinə xidmət bölmələrinin vəzifəli şəxsləri və metodiki kabinetlərə təhsil müəssisələri tərəfindən təhkim olunmuş məsul şəxsləri ilə birgə monitorinqlər aparmışdır. 39 təhsil müəssisəsində müvafiq monitorinqlər keçirilmiş və onun nə- Beynəlxalq Texniki İnkişaf Agentliyi (ADETEF) tərəfindən «İnkişaf üçün əməkdaşlıq: iqtisadiyyat və maliyyə sahələrində keyfiyyətli idarəçiliyin təmin olunması üçün dövlət qurumlarında çalışan menecerlərin treninqi» mövzusunda keçirilən konfransda Tədris Mərkəzinin əməkdaşı iştirak etmişdir. Mərkəzinin əməkdaşları Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə səfər çərçivəsində AVIS-in tədris altmodulu ilə bağlı bir sıra yeniliklərlə tanış olmuşlar.

# Regionlarla bağlı yeni Dövlət Proqramının icrasına başlanılıb

*2014-2018-ci illəri əhatə edən «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın qəbul edilməsindən ay yarım keçməsinə baxmayaraq, bölgələrdə sosial, iqtisadi və infrastruktur layihələrinin həyata keçirilməsi geniş miqyas alıb. Bütün rayonlarda quruculuq, tikinti-abadlıq, təmir-bərpa işləri, yeni istehsal sahələrinin yaradılması intensiv şəkildə davam etməkdədir. Üçüncü Dövlət Proqramının icrası nəticəsində artıq ilin altı ayında 65 min yeni iş yeri açılıb ki, onlardan 52 mini daimidir. Ümumilikdə isə regionların inkişafı strategiyasının başlanmasından indiyədək 1 milyon 300 min iş yeri açılıb, onlardan təxminən 1 milyonu daimidir.*

Ötən 6 ayda bölgələrdə həyata keçirilən kredit yarmarkaları nəticəsində xeyli sayda sahibkar maliyyə vəsaitləri ilə təmin olunub və onlar artıq öz layihələrinin icrası üçün müvafiq işlərə start veriblər. Eləcə də kənd təsərrüfatı və emal sənayesinin inkişafı üçün aqrar kredit təşkilatları bu istiqamətdə fəallığı artırıb. Aqrar sahədə çalışan sahibkarlara güzəştli şərtlərlə texnika və mineral gübrələrin verilməsi, satış bazarları şəbəkəsinin genişləndirilməsi, fermerlərin xarici bazarlara çıxışı üçün ixrac imkanlarının stimullaşdırılması ilə bağlı tədbirlər genişlənib. Ümumiyyətlə, tikinti, infrastruktur, rabitə, turizm və digər sahələrlə bağlı layihələrə maliyyə vəsaitlərinin cəlb olunması bölgələrdə qeyri-neft sektorunun inkişafına təkan verən başlıca faktora çevrilib.

İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) regionların sosial-iqtisadi inkişafı ilə bağlı yeni dövlət proqramının iqtisadiyyatın strukturunun dəyişməsi və şaxələndirilməsi baxımından fərqli olacağını bildirir. Üçüncü regional inkişaf proqramı yeni innovativ iqtisadi layihələrin tətbiqi kimi mühüm istiqamətləri əhatə edəcək.

Proqram çərçivəsində regionlardakı sosial-iqtisadi inkişafı sürətləndirmək üçün mövcud əmək ehtiyatlarının səfərbər edilməsi, təbii və iqtisadi potensialdan daha səmərəli istifadə nəzərdə tutulur. İcra olunmuş əvvəlki iki proqramdan doğan bir sıra yeni iqtisadi və sosial tələblərin müasir dövrün çağırışlarına əsaslanaraq yerinə yetirilməsi əsas prioritetlərdəndir. Ortamüddətli dövr üzrə müəyyən olunmuş strateji inkişaf istiqamətlərinə əsasən, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi tənzimləmənin alət və mexanizmlərinin səmərəliliyinin artırılması, ölkənin iqtisadi potensialının gücləndirilməsi və milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin daha da yüksəldilməsi və onun intellektual-texnoloji səviyyəsinin artırılması, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi və qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, sosialyönümlü siyasətin davam etdirilməsi nəzərdə tutulur.

*Proqram çərçivəsində regionlardakı sosial-iqtisadi inkişafı sürətləndirmək üçün mövcud əmək ehtiyatlarının səfərbər edilməsi, təbii və iqtisadi potensialdan daha səmərəli istifadə nəzərdə tutulur*

Yeni proqramın əsas istiqamətlərindən biri qeyri-neft sektorunun ölkə iqtisadiyyatının inkişafında aparıcı bölmə kimi rolunun artırılmasından ibarətdir. Məqsəd yaxın gələcəkdə regionlardakı iqtisadi sərvətlərin və qeyri-neft məhsullarının istehsalının və ixracının yüksəlməsi hesabına milli gəlirin iki dəfə artırılmasına nail olmaqdır. Regionlardakı qeyri-neft ehtiyatlarının istehsal imkanlarını artırmaq, istifadə edilməmiş iqtisadi və təbii resursları istehsala cəlb etmək, elmtutumlu rəqabətqabiliyyətli milli istehsalı formalaşdırmaq, elmin istehsala inteqrasiyasını daha da gücləndirmək əsas strateji tədbirlər hesab olunur.

Azərbaycan yaxın 7-8 ildə ümumi daxili məhsulun həcmini 2 dəfə artırmağı, əsas etibarilə qeyri-neft sektorunun hesabına təmin etməyi iqtisadi prioritetlərdən biri kimi müəyyən edib. Nikbin proqnozlara əsasən, iqtisadiyyatda şaxələndirmə siyasətinin həyata keçirilməsi yaxın illərdə öz mühüm bəhrəsini verəcək və ölkəmizin sərmayə mənbələri sırasında qeyri-neft məhsulları xüsusi paya malik olacaq. Qarşıdakı illərə dair sosial-iqtisadi inkişaf göstəricilərinə əsasən, neft sektorunun payı 52,4%-dən 22,4%-ə düşəcək. Bu dövrdə qeyri-neft sektorunun payı, müvafiq olaraq, 47,6%-dən 77,6%-dək artacaq.

**Elbrus CƏFƏRLİ**

## aktual

# Sahibkarların maraqları qorunur

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə əsasən, yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah edilməsi tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlər verilir və görülmüş işlər barədə illik hesabatlar hazırlanır. Vergi ödəyiciləri üçün daha aktual olan istiqamətlər barədə məlumatlandırma işləri aparmaq məqsədilə qəzetimizin bu buraxılışından məlumatlandırma formalarını təqdim edirik.**

*Vergi Məcəlləsinin 43-cü maddəsinə əsasən səyyar vergi yoxlaması keçirildikdə, yoxlamanın predmetinə aid olan və vergilərin hesablanması üçün tələb olunan sənədlərin və nümunə kimi əşyaların vergi orqanı tərəfindən götürülməsi*

Səyyar vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən təqdim olunan sənədlərin və əşyaların öyrənilməsinə əlavə vaxt tələb olunduğu halda, həmçinin təqdim olunmuş sənədlərdə vergi qanunvericiliyinin pozulması halları müəyyən edildikdə və ya bu pozuntular bilavasitə əşyalarla bağlı olduqda səyyar vergi yoxlamasını keçirən şəxs vergi orqanının rəhbərinin (və ya onun müavininin) əsaslandırılmış qərarı ilə ona təqdim edilmiş sənədləri və nümunə kimi əşyaları götürə bilər. Bu zaman sənədlər və nümunə kimi əşyalar gün ərzində saat 08:00-dan 20:00-dək götürülə bilər.

Götürülən əşyaların miqdarı, həcmi və götürülmə ilə əlaqədar digər şərtlər Azərbaycan Respublikasının ərazisində qüvvədə olan standartlara və normativlərə əsasən müəyyən edilir. Nümunə kimi götürülmüş əşyalar, həmin əşyaların tədqiq edilməsi üçün tələb olunan vaxt nəzərə alınmaqla 30 gündən artıq olmayan müddətə götürülə bilər. İstehlak xassələrini itirməyən əşyalar vergi ödəyicisinə qaytarılır, istehlak xassələrini itirmiş malların müqabilində isə vergi ödəyicisinə onların dəyəri ödənilir.

Əlavə olaraq qeyd olunmalıdır ki, vergi ödəyicisi sənədlərin və əşyaların götürülməsinə etiraz etdikdə, vergi orqanı məhkəməyə müraciət edərək məhkəmənin çıxardığı qərara əsasən sənədlərin və əşyaların götürülməsini təmin edə bilər.

*Rubrikanı Vergi ödəyicilərinə xidmət Baş İdarəsi aparır*

# "ASAN xidmət" – şəffaflığa təminat, vətəndaş məmnunluğu

*«ASAN xidmət» nadir modeldir. Mən hələ belə bir model görməmişdim. «ASAN xidmət» məndə çox böyük təəssürat yaratdı». Bu sözləri Avropa Şurasının baş katibi Torbyorn Yaqland bu il mayın 20-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 4 saylı Bakı «ASAN xidmət» Mərkəzində yaradılmış şəraitlə tanışlıqdan sonra bildirib. Qurum rəsmisi vurğulayıb ki, «ASAN xidmət» bir çox Avropa ölkələri üçün nümunə ola bilər.*




Sabunçu rayonu 4 saylı «ASAN xidmət» Mərkəzinin inzibati binası Bakıxanov qəsəbəsi Sülh küçəsində yerləşir. Mərkəz Bakı şəhəri üzrə 12 rayona xidmət göstərir. Yeni istifadəyə verilmiş mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün həmin məkana üz tutduq...

2014-cü il mayın 15-dən fəaliyyətə başlayan 4 saylı «ASAN xidmət»də səhər tezdən iş qaynayırdı. Elə girişdəcə vətəndaşların təhlükəsizliyi naminə quraşdırılmış müasir mühafizə aparatı diqqətimizi çəkdi. Mərkəzin mühafizə xidmətinin əməkdaşları tərəfindən isə vətəndaşların təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə binaya daxil olanlar üzərlərindəki əşyalarla birlikdə xüsusi yoxlamadan keçirilirdi.

Məlumat şöbəsinin əməkdaşları Nazı Namazova və Könül Qocayevanın sözlərinə görə, gün ərzində təkcə bu şöbəyə 1600-2000 müraciət olur. Mərkəzin ayrı-ayrı şöbələri üzrə müşahidələrimiz onu deməyə əsas verir ki, vətəndaşlar tərəfindən ən çox müraciət olunan xidmət növü şəxsiyyəti təsdiq edən sənədin, xarici pasportların alınması, notariat üzrə əməliyyatlardır. Bakı şəhəri üzrə göstərilən səyyar xidmətə də az müraciət edilmir. Bundan başqa, sosial həmrəyliyin təmin edilməsi məqsədilə səyyar xidmət kənardan qulluğa və yardıma ehtiyacı olan əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə xidmət haqqı ödənilmədən həyata keçirilir.

### Xidmətlərin əhatə dairəsi genişlənir

Bölmələrlə tanışlıq zamanı bizə yardımçı olan mərkəzin baş məsləhətçisi Elxan Abdullayevin sözlərinə görə, hələ bundan sonra görüləcək, vətəndaşların bu xidmətlərdən istifadəsini yüngülləşdirmək üçün həyata keçiriləcək işlər, layihələr, innovativ proqramlar çoxdur: «Vətəndaşlara göstərilən xidmətin səviyyəsini yüksəltməkdən ötrü çıxış qapısında quraşdırılmış «Exit poll» aparatı vasitəsilə burada fəaliyyət göstərən dövlət orqanlarının siyahısı ilə tanış olmaq mümkündür. Aparatda beş kateqoriya üzrə xidmətlərin ölçülmə səviyyəsini göstərən parametrlər var. Vətəndaş mərkəzdən çıxarkən rəy sorğusunda iştirak etmək istəyirsə, aparata yaxınlaşaraq kateqoriyaları seçir və təsdiq edir. Həmçinin burada təklif, şikayət və yaxud digər məsələlərlə bağlı onlayn rejimdə müraciət köşkü üzərindən Çağrı Mərkəzi ilə əlaqə yaratmaq imkanı var. Vətəndaşlar köşkə yaxınlaşaraq bir düyməni basmaqla Çağrı Mərkəzi ilə birbaşa əlaqəyə girə və operatora rəy, təklif və şikayətini bildirə bilər. Eyni zamanda, vətəndaşlara elektron xidmətlərin səviyyəsini yüksəltmək məqsədilə mərkəzdə e-manat, paypoint aparatları quraşdırılmışdır ki, bunların vasitəsilə kommunal xidmətlər üzrə ödəmə və ya mobil yükləmələr aparmaq mümkündür».

Elxan Abdullayevin sözlərinə görə, bu yaxınlarda Almaniya parlamentinin üzvləri mərkəzdə olublar və xidmətin fəaliyyəti ilə bagli xeyli məlumat toplayıblar. Gostərilən xidmət, qurulmuş sistem və infrastruktur qonaqların diqqətini daha çox çəkib: «Onlar bizim təcrübəni çox bəyəndiklərini, Almaniyada bu tip xidmətlərin istifadəsində Azərbaycanın təcrübəsindən yararlanacaqlarını və belə bir təşəbbüs irəli sürmək əzmində olduqlarını bildirdilər».

### Vergilərlə bağlı müraciətlərin sayı artır

Mərkəzin bölmələri ilə tanışlıq zamanı Vergilər şöbəsinin əməkdaşı Yunis Əhmədovla da həmsöhbət olduq. Onun sözlərinə görə, burada vergi ödəyicilərinə bir neçə xidmət həyata keçirilir: «Fiziki şəxslərə VÖEN verilməsi, uçota götürülməsi və hüquqi şəxsin ilkin qeydiyyatı ilə bağlı vətəndaşların sorğu və müraciətləri cavablandırılır. 4 saylı «ASAN xidmət» yeni fəaliyyətə başladığı üçün digər mərkəzlərlə müqayisədə buraya axın nisbətən azdır. Lakin buna baxmayaraq, gün ərzində bizə edilən müraciətlərin sayı 15-20-yə çatır. «Asan imza» ilə bağlı müraciətlər də müvafiq qaydada cavablandırılır və 15-20 dəqiqə ərzində sertifikat verilir. Bugünkü müraciətlərə gəldikdə, vətəndaşlardan biri hesabat vermək istəyirdi. Lakin bizdə hələlik o xidmət göstərilmədiyindən həmin vətəndaşı Vergilər Nazirliyinin Xidmət terminalına müraciət etməyə yönləndirdik. Daha bir vətəndaş isə fiziki şəxsə VÖEN açdırılması ilə bağlı hazır sənədini aparmağa gəlmişdi. Ümumilikdə, hələ günün yarısı olmasına baxmayaraq, artıq 5 nəfərin müraciətini qəbul etmişik. Vergilər Nazirliyinin nümayəndəsi olaraq, vəzifəmizi yüksək səviyyədə həyata keçirməyə çalışırıq ki, heç kim bizdən narazı getməsin».

### Vətəndaşlar göstərilən xidmətdən məmnundurlar

Mərkəzin Daşınmaz əmlak şöbəsində olarkən Heydərova Sadiq Vəli qızına ev alqı-satqısı ilə bağlı xidmət göstərilirdi. Mətbuat nümayəndəsi olduğumuzu eşidən S.Heydərova göstərilən xidmətdən tam razı qaldığını, ona hər bir köməkliyin göstərildiyini bildirdi və onun fikirlərinin qəzet vasitəsilə bütün vətəndaşlara çatdırılmasını xahiş etdi: «ASAN xidmət»ə müraciət edənə qədər burada yüksək səviyyədə xidmət göstərildiyinə inamsızlığım var idi. Artıq tam əminliklə deyirəm ki, heç nədən çəkinmədən hamı bu mərkəzlərə müraciət edə və tez bir zamanda istədikləri sənədi əldə edə bilərlər». Aydan və Arzu Nuriyevlər Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı şöbəsinə övladlarına şəhadətnamə almaq üçün müraciət etdiklərini bildirdilər. Bununla bağlı bir çox yerlərə üz tutduqlarını, lakin süründürməçiliklə rastlaşdıqlarını söyləyən Nuriyevlər sonda «ASAN xidmət»də çox rahat şəkildə nikah qeydiyyatından keçərək, şəxsiyyət vəsiqələrini dəyişdirdiklərini və uşağa şəhadətnamə əldə etdiklərini bildirdilər. Mahal Əliyeva adlı vətəndaş da gəlinlərinin nikah qeydiyyatı ilə bağlı bu şöbəyə müraciət etmiş və operativ şəkildə lazımi sənədi əldə etmişdi.

Sığorta şöbəsinin əməkdaşı Cahid Nadirov bildirdi ki, avtomobillərin sığortalanması üzrə müraciətlər daha çox olur. «Məsələn, bu günə 3 nəfər bununla bağlı müraciət etmişdir ki, onların istəyi əsasında ayrı-ayrı sığorta agentlikləri ilə müqavilələr imzalanmışdır».

### «ASAN xidmət» həyatımızı asanlaşdırmaqda davam edir...

4 saylı»ASAN xidmət»in fəaliyyəti ilə tanışlıq zamanı çoxlu sayda fəal gənclərlə tanış olduq. Mərkəzdə könüllülük prinsipi ilə fəaliyyət göstərən gənclərin sözlərinə görə, burada 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran hər kəsə xüsusi diplomlar və müsbət xasiyyətnamə verilir ki, bu da onların növbəti iş həyatına uğurlu bir keçid fürsəti deməkdir. Xidmətin əməkdaşı Ülviyyə Qurbanova da vaxtilə könüllü olaraq burada fəaliyyətə başladığını, üç ay sonra isə rəsmən işə qəbul olunduğunu və bununla özünü çox xoşbəxt hiss etdiyini bildirdi. Həmsöhbətimiz mərkəzdə işləməkdən zövq aldığını, rəhbərliyin işçilərlə gözəl münasibətindən, birlikdə keçirdikləri bayramlardan, əlamətdar günlərin qeyd olunmasından və tədbirlərdən ağızdolusu danışdı.

...Nəhayət, gəzə-gəzə 5-ci mərtəbəyə çıxdıq. Burada yerləşən İnnovasiyalar Mərkəzində quraşdırılmış müasir avadanlıqlar, texnologiyanın son nailiyyətlərinin tətbiqi gələcəkdə bir çox layihələrin həyata keçiriləcəyi və vətəndaşların həmin layihələrdən real olaraq istifadə edə biləcəyindən xəbər verir. Bir sözlə, «ASAN xidmət» həyatımızı asanlaşdırmaqda davam edir...

**Fəxriyyə İKRAMQIZI**

# Əmək müqaviləsi: gələcəyin təminatı

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Müsabiqədə yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

...25 yaşlı Vasif axır ki, istədiyi yerdə özünə iş tapa bildi, hər şey də ürəyincədir, şadlıq evinin rəhbərliyi gündəlik işəmuzd əməkhaqqı verməkdə təkid etsə də, aylıq maaş müqabilində, ən əsası isə əmək müqaviləsi bağlayaraq çalışmaq şərtinin qəbul olunması onu çox rahat edib. Doğrudur, dostları ondan çox maaş aldıqlarını deyirlər, amma onların çoxunun əmək müqaviləsinin olmadığını yaxşı bilən Vasif indiki qazancından razıdır. Çünki həmin «yolları o çoxdan keçib gəlib», 7-8 şadlıq evi dəyişsə də, heç birində əmək müqaviləsi barədə danışan belə olmayıb. Hətta bir dəfə iş yoldaşlarından birinin qışda xəstələnib 3 gün işə çıxmadığına görə, şadlıq evinin rəhbəri tərəfindən cəzalandırılmasını heç vaxt unuda bilmir. Rəhbərlik poliklinikanın bülletenini cırıb, «sən elə 3 gün əvvəldən işdən qovulmusan, bu kağız-kuğuz bizdə işləmir» deyib, dostunu xəstələnməyə peşman etmişdi. Yazıq kimə şikayət edəsi idi ki, müqaviləsiz işləmək ona baha başa gəlmişdi...

...Vasif indi anlayır ki, bütün bu problemlərin yaranması əmək müqaviləsinin olmamasıdır. Əgər işçilərin çalışdığı müəssisələrdə müqaviləsi olsa nə xəstələnəndə, nə xəsarət alanda rəhbərlik onları incidə bilməz. Hətta işçi istirahət etmək istədikdə əmək müqaviləsinin tələblərinə uyğun rəhbərliyə müraciət edərək məzuniyyətə də çıxa bilər və qayıtdıqda heç kim ona qapını göstərməz.

### Həm işəgötürən günahkardır, həm də işçi...

Vergi-hüquq məsələləri üzrə ekspert, İqtisadi Maarifçilik Mərkəzinin əməkdaşı Ziya Qurbanlının sözlərinə görə, əmək müqaviləsinin bağlanmamasında işəgötürən nə qədər müqavimət göstərməyə çalışsa da, işçi hüququn imkanlarından istifadə edərək öz tələblərini irəli sürsə müsbət nəticə əldə etmək mümkündür: «Müşahidələr göstərir ki, əmək bazarı ilə bağlı problemlərin yaranmasında hər iki tərəfin günahı var. Bir çox hallarda işçi ilə işəgötürən arasında sadəcə şifahi razılıq olur, əmək müqaviləsi imzalanmır. Bunun bir günahkarı işəgötürəndirsə, digəri də işçidir. Əgər bu halda işəgötürənlə işçi arasında bir narazılıq yaransa və işəgötürən işçiyə ödəmə etməsə, o zaman işçinin məhkəməyə şikayət etməyinin mənası da yoxdur, çünki onun əlində bunu təsdiq edən sənəd olmur».

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov də hesab edir ki, belə hallara qarşı bəzi insanlar passiv mövqe nümayiş etdirirlər: «İşçilər bəzən fikirləşirlər ki, məvacibimdən vergi, sosial sığorta haqqı ödəyəndə aylıq gəlirim azalacaq. «Soğan olsun, nağd olsun» prinsipi ilə yaşayanlar var. Bu, çox zərərli vərdişdir, cəmiyyət bu məsələdə fəal olmalıdır». «New Sphera» şirkətinin əməkdaşı Əlövsət Əliyevin dediyinə görə, qurum bir sıra vergi məsləhətlərinin göstərilməsi və digər iqtisadi-hüquqi biliklərin təbliği ilə məşğul olsa da, ilk növbədə, əmək müqavilsi imzalamağın vacibliyi haqqında maarifləndirici işləri də yaddan çıxarmır: «Hər bir müəssisənin əməkdaşına əmək müqaviləsinin üstünlükləri barədə məlumat veririk. Çünki müəssisədə qanuni əsaslarla çalışan işçilərin hər biri vergi ödəyicisidir. Əməkdaşlıq etdiyimiz iaşə, ticarət və xidmət mərkəzlərində və digər sahibkarlıq subyektlərində işçilərə əmək və vergi sahəsində baş verən yeniliklər, yeni elektron xidmətlər barədə lazımi izahatlar verir, hüquqi yardım edir, yeni xidmətlərdən istifadə qaydalarını başa salırıq. Bunların mühüm üstünlüklərini hiss edirik. Müşahidələrimizə görə, son bir ildə sahibkarların öz işçiləri ilə əmək müqaviləsi bağlaması halları xeyli artıb».

### Vergilər Nazirliyinin sərt tədbirləri səmərə verir

Vergilər Nazirliyinin Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti bölməsinin rəisi Ömər Cəfərovun sözlərinə görə, son illər ölkəmizdə yeni sahibkarlıq subyektlərinin və iş yerlərinin açılması istiqamətində uğurlu nəticələr əldə olunub. Əhalinin həyat səviyyəsinin, eləcə də gəlirlərinin yüksəlməsinə baxmayaraq, bəzi sahibkarlar tərəfindən vergi orqanlarına təqdim olunan muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarında real vəziyyətə uyğun göstəricilər əks etdirilmir. İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində aparılan təsirli tədbirlər nəticəsində işəgötürənlər arasında sosial məsuliyyətin güclənməsinə baxmayaraq, bəzi sahibkarlar tərəfindən qanunla müəyyən edilmiş vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərinin pozulması halları hələ də davam etdirilir. Dəfələrlə edilmiş xəbərdarlıqlara baxmayaraq, işəgötürənlər işçilərlə əmək müqavilələri bağlamadan və iş yerlərini rəsmiləşdirmədən vətəndaşları müxtəlif işlərin görülməsinə cəlb edir, nəticə etibarilə qeyri-qanuni məşğulluğu təmin etməklə vergilərdən yayınmaya çalışırlar. Vergilər Nazirliyinin qəbul etdiyi konsepsiyaya uygun olaraq, bütün vergi orqanlarına əmək müqavilələrinin bağlanmasının təmin olunması istiqamətində ciddi nəzarət tədbirləri həyata keçirilməkdədir. Qanunvericiliyin imkan verdiyi inzibati vasitələrlə yanaşı, maariflənləndirmə tədbirlərindən də geniş iştifadə edilir: əmək müqaviləsinin imzalanmasının zəruriliyi, yaratdığı üstünlüklər, işçilərin pensiya təminatındakı rolu, qanunvericilikdə aparılmış dəyişikliklər və digər mühüm məqamlar insanlara geniş izah olunur. Əmək bazarında vergi uçotunun aparılması, əmək müqavilələrinin bağlanmasına onlayn rejimdə nəzarət üçün Vergilər Nazirliyində məlumat bazası yaradılıb. Hər bir əmək müqaviləsi ilə bağlı məlumatlar bazaya daxil edilir. Əmək müqavilələrinin reyestri digər dövlət orqanlarına da göndərilir ki, bu da müvafiq tədbirlərin görülməsinə, işlərin əlaqələndirilməsinə kömək edir. Əmək müqavilələri bağlandıqdan sonra işçi sayının düzgün göstərilib-göstərilməməsi daim nəzarətdə saxlanılır. Vergi ödəyiciləri tərəfindən təqdim olunan bəyannamələrə əsasən hesablanan əməkhaqqı məbləğlərinin ölkə üzrə müəyyən edilən yaşayış minimumu məbləğindən yuxarı qaldırılması və real orta aylıq əməkhaqlarına uyğunluğunun nəzarətdə saxlanılması məqsədilə 2014-cü ilin yanvar ayından kompleks tədbirlərə başlanılmışdır. Nazirlik muzdlu işlə əlaqədar təqdim olunan bəyannamə göstəricilərini təhlil etmiş, 56997 riskli vergi ödəyicisi üzrə müvafiq tədbirlər həyata keçirmişdir. Cari ilin birinci rübü ərzində 31480 vergi ödəyicisi tərəfindən təqdim olunan bəyannamələrə əsasən hesablanan əməkhaqqı məbləğlərinin real əməkhaqlarına uyğun əks etdirilməsinə dair ştat cədvəllərində müvafiq düzəlişlər edilmişdir.

### 10 min manat cərimə, 3 il azadlıqdan məhrumetmə...

Mütəxəssislərin fikrincə, əmək bazarına nəzarəti gücləndirmək məqsədilə qanunvericiliyə edilmiş son dəyişikliklər mühüm əhəmiyyət kəsb edir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə edilmiş son dəyişikliklərə görə, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontrakt) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb olunmasına görə vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20 min manatdan 25 min manatadək cərimə edilir. Vergi Məcəlləsinin 58.10-cu maddəsinə edilmiş dəyişikliyə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Cinayət Məcəlləsinə edilən son dəyişikliklərə görə isə işçilərlə əmək müqaviləsi bağlamadan onları işə cəlb edənləri 7 min manatdan 10 min manatadək və ya 3 il müddətinə azadlıqdan məhrumetmə cəzası gözləyir.

### Hamı elektron sistemdə olacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyinin rəis müavini Məhərrəm Məhərovun fikrincə, məşğul əhalinin əmək hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə Əmək Məcəlləsində çox mühüm dəyişikliklər edilib: «Ölkə başçısının 2014-cü il 3 fevral tarixli «Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 2013-cü il 27 dekabr tarixli Qanunun tətbiqi barədə fərmanı Azərbaycanda qeyri-leqal məşğulluqla mübarizə, əmək bazarına nəzarətin gücləndirilməsi və işçilərin əmək hüquqlarının etibarlı təminatı baxımından müstəsna əhəmiyyətə malikdir. Fərmanla əmək müqaviləsi bildirişinin formasının və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarının, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə əlaqədar işəgötürənə göndərilən məlumat formasının, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydaların hazırlanması nəzərdə tutulub. Əsas dəyişikliklərdən biri də əmək qanunvericiliyinə əmək müqaviləsi bildirişi anlayışının daxil edilməsidir.

Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Bu dəyişikliklərdən sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. Elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə, bir iş günündən gec olmayaraq, sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilməsi nəzərdə tutulub. Əmək Məcəlləsinə edilmiş dəyişikliklər məşğul əhalinin əmək hüquqlarının müdafiəsini təmin etməyə və qeyri-leqal əmək fəaliyyətinin qarşısını almağa, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsində və əməyin ödənişinin təşkilində mövcud problemləri aradan qaldırmağa yönəldilib. Əmək Məcəlləsində dəyişikliklər edilməsi ilə bağlı qanunun tətbiqi barədə ölkə başçısının fərmanına uyğun olaraq, əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranacaq. Bundan sonra təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməli olacaqlar.

Elektron informasiya sisteminin işə salınması işçi hüquqlarının təminatı istiqamətində mühüm addım olmaqla, əmək münasibətlərinin formal olaraq rəsmiləşdirilməsi, yəni bağlanmış əmək müqaviləsinin bir nüsxəsinin işçiyə verilməməsi və yalnız işəgötürəndə qalması kimi hallara son qoyacaq. Nəticədə işçilərdən iş yerləri, əməkhaqları və s. barədə arayışlar istənilməyəcək, bu barədə müvafiq məlumatlar elektron informasiya sistemi vasitəsilə əldə ediləcək.

**Anar MİRİYEV,**
***«Palitra» qəzeti***

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Hörmətli oxucular, qeyd edildi ki, mühasib tərəfindən sonuncu tərtib olunacaq hesabat «maliyyə hesabatlarına qeydlər», yəni açıqlamalar adlanır. Bizim misal üzrə «maliyyə hesabatlarına qeydlər»in sadə formada tərtib olunmasını aşağıdakı kimi davam etdirək (bax cədvələ).

Məlumdur ki, «maliyyə hesabatlarına qeydlər»dən başqa maliyyə hesabatlarına «mühasibat balansı», «mənfəət və zərər haqqında hesabat», «kapitalda dəyişikliklər haqqında hesabat» və «pul vəsaitlərinin hərəkəti haqqında hesabat» aiddir. Yuxarıda göstərilən 9 sayda qeydlər yalnız «mühasibat balansı»na aiddir. Qeydlərdə əks etdirilən göstəricilər demək olar ki, sınaq balansı məlumatlarıdır.

İndi isə «mənfəət və zərər haqqında hesabat» üzrə qeydləri hazırlayaq. Bu qeydlərin hazırlanmasında baş kitab məlumatlarından da istifadə olunacaqdır (bax cədvələ).

**Ardı növbəti sayımızda**

**Qeyd 5. Ödənilmiş nominal (nizamnamə) kapital**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Təsisçi tərəfindən ödənilən ilkin təsisçi kapitalı (təsisçi payı) | 40000 | 40000 |
| Hesabat ilində daxil olan təsisçi kapitalı (təsisçi payı) | 30000 | 0 |
| **Cəmi** | **70000** | **40000** |

**Qeyd 6. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Keçmiş illərin bölüşdürülməmiş mənfəəti | 0 | 0 |
| Hesabat ilinin bölüşdürülməmiş mənfəəti | 37376 | 0 |
| **Cəmi** | **37376** | **0** |

**Qeyd 7. Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Qısamüddətli bank kreditləri | 80000 | 0 |
| **Cəmi** | **80000** | **0** |

**Qeyd 8. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Sosial sığorta və təminatlar üzrə öhdəliklər | 3100 | 400 |
| Vergi öhdəlikləri (mənfəət vergisi üzrə) | 9344 | 0 |
| **Cəmi** | **12444** | **400** |

**Qeyd 9. Qısamüddətli kreditor borcları**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Malsatan və podratçılara qısamüddətli kreditor borcları | 207370 | 78900 |
| Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borcları | 3140 | 1700 |
| **Cəmi** | **210510** | **80600** |

**Qeyd 10. Əsas əməliyyat gəliri**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Malların satışı | 383400 | - |
| **Cəmi** | **383400** | **-** |

**Qeyd 11. Satışın maya dəyəri**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Satılmış malın alış dəyəri | 273350 | - |
| **Cəmi** | **273350** | **-** |

**Qeyd 12. Kommersiya xərcləri**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Əməkhaqqı | 13000 | - |
| Sosial sığorta ayırmaları | 2860 | - |
| Elektrik xərci | 1500 | - |
| Su xərcləri | 700 | - |
| Amortizasiya xərcləri | 17500 | - |
| **Cəmi** | **35560** | **-** |

## vergi təqvimi

**İYUL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 iyul - «(1)» və «(2)».
21 iyul - «(1-1)», «3», «4», «8», «9», 10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

qara siyahı

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmirlər.

Bununla əlaqədar olaraq, ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 4 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

Adının «Qara siyahı»ya düşməsini istəməyən vergi ödəyiciləri vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödənilməsini təmin etməlidirlər.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | 22.07.2014 tarixə borc (manatla) |
|---|---|---|---|
| 1 | "ŞANS" Kiçik Müəssisəsi | Qobustan rayonu | 27 977,9 |
| 2 | CAVADOV HACALI PAŞA OĞLU | Şamaxı rayonu | 6 113,7 |
| 3 | DƏMİROV XƏYAL KƏRƏM OĞLU | Şamaxı rayonu | 3 600,5 |
| 4 | ALİYEV ŞÜHRƏT KAMİL OĞLU | Qobustan rayonu | 1 966,6 |
| 5 | OSMANOV RƏŞAD SOLTAN OĞLU | Şamaxı rayonu | 1 917,7 |
| 6 | CƏNNƏTOV ŞƏHRİYAR RƏŞADƏT OĞLU | Şamaxı rayonu | 1 454,6 |
| 7 | SÜLEYMANOV NİCAT İLHAM OĞLU | Ağsu rayonu | 1 411,9 |
| 8 | GÜLMƏMMƏDOV RAHİM LAZIM OĞLU | Ağsu rayonu | 1 268,1 |
| 9 | ZƏRBALİYEV FUAD GÜLOĞLAN OĞLU | Ağsu rayonu | 1 227,2 |
| 10 | QƏDİROV ƏFQAN İNQİLAB OĞLU | Ağsu rayonu | 1 078,2 |

# Dövlət Neft Fondunun büdcə gəlirləri artıb

*Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri bu ilin yanvar-iyun aylarında 6493,6 milyon manat, büdcə xərcləri isə 5163,1 milyon manat təşkil edib. Ötən 6 ayda fondun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 6374,8 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 6355,4 milyon manat, tranzit gəlirləri 4,4 milyon manat olub. Bu dövrdə Neft Fondunun vəsaitlərinin idarə olunmasından 118,8 milyon manat gəlir əldə edilib.*

ARDNF-nin İctimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, hesabat dövrü ərzində fondun 2014-cü il büdcəsinin icrası çərçivəsində dövlət büdcəsinə 4883,8 milyon manat vəsait transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 177,3 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 11 milyon manat, «Bakı-Tbilisi-Qars yeni dəmir yolu» layihəsinin maliyyələşdirilməsinə 19,6 milyon manat vəsait sərf olunub. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 5,2 milyon manat vəsait yönəldilib. «Şahdəniz» qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələri üzrə yaradılmış səhmdar cəmiyyətinin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin maliyyələşdirilməsi məqsədilə Neft Fondundan 40 milyon manat vəsait ayrılıb. Altı ayda fondun idarə edilməsi ilə bağlı xərclər 26,2 milyon manat təşkil edib.

Fondun aktivləri ilin əvvəlinə nisbətən 4,86 faiz artaraq 37622,4 milyon ABŞ dollarına bərabər olub. Hazırda Neft Fondu tərəfindən alınmış qızılın miqdarı 30175 kiloqramdır.




vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Fiziki şəxs Mehman Məmmədovun rəhbərlik etdiyi «Turan-Babək» MMC müxtəlif şirkət və müəssisələrdə təmir-tikinti, avadanlıqların quraşdırılması və digər xidmətlərin göstərilməsi ilə məşğul olub. Sahibkar bir müddət sadələşdirilmiş vergi üzrə vergiləri ödəyib, sonra gəlirləri artdığından digər vergi növləri üzrə ödənişlərə cəlb olunub. Bu isə tamahı ucbatından, M.Məmmədovun vergidən yayınmaq üçün saxtakarlığa əl atması ilə nəticələnib: vergi orqanına bəyannamə təqdim etməməklə ƏDV və gəlir vergisi üzrə 83934,66 manat məbləğində vergiləri ödəməkdən yayındırıb. Amma bu, onun yol verdiyi qanunsuzluqların kiçik bir hissəsi olub. Aparılan çoxsayı araşdırmalar nəticəsində M.Məmmədovun daha böyük məbləğdə vergi cinayətləri törətməsi təsdiq edilib.

«Turan-Babək» MMC-nin ən böyük cinayətləri təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi faktı üzrə araşdırma zamanı meydana çıxıb. Müəssisəyə sifarişlərin verilməsində bir neçə rayonun təhsil və mədəniyyət şöbələrinin yüksək vəzifəli şəxsləri ona yardımçı olub. Tərəflərin birgə razılığı əsasında təmir işlərinin aparıldığı məktəblərdə və mədəniyyət ocaqlarında iş və xidmətlərin dəyəri şişirdilərək real qiymətindən bir neçə dəfə yüksək göstərilib. Nəticədə müvafiq orqanların apardıqları araşdırmalar nəticəsində həm dövlət vəsaitinin mənimsənilməsi, həm də külli miqdarda vergidən yayınma halları müəyyən edilib. Konkret olaraq, Goranboy rayonunda 20-dən artıq təhsil, mədəniyyət, idman müəssisələrində baş vermiş vergi cinayəti və dövlət vəsaitlərinin mənimsənilməsi halları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində cinayət işi başlanılıb.

İstintaq zamanı müəyyən edilib ki, «Turan-Babək» MMC-nin törətdiyi qanunsuzluqlarda Goranboy Rayon Təhsil Şöbəsinin rəhbər işçiləri qabaqcadan cinayət əlaqəsinə girib, öz qulluq mövqelərindən istifadə edərək 130786,60 manat (həmin məbləğdən 6850,00 manat dəyərində işlərin direktoru Mehman Məmmədov olan «Turan-Babək» MMC tərəfindən yerinə yetirilməsi göstərilib) məbləğdə vəsaiti mənimsəyiblər.

Faktla bağlı Mehman Məmmədov təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunub və barəsində Cinayət Məcəlləsinin 179.3.2 və 313-cü maddələri ilə cinayət işi başlanılıb.

İstintaq zamanı sahibkarın müxtəlif vasitələrlə dövlət büdcəsindən yayındırdığı vəsaitlərin həcminin 50854,04 manat olması təsdiqini tapıb. Mehman Məmmədovun cinayət törətdiyi müəyyən edilmiş hallar, iş materialları, o cümlədən şahid ifadələri, ekspert rəyi və istintaq materialları ilə tam sübuta yetirilib. Sahibkar ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilib.

M.Məmmədov Goranboy Rayon Məhkəməsinin hökmü ilə 3 il azadlıqdan məhrumetmə cəzasına layiq görülüb.

**E.CƏFƏRLİ**

beynəlxalq panoram

# Rusiyada daşınmaz əmlaka görə vergilər kəskin arta bilər

*Bu ödənişlərin üçqat artacağı gözlənilir. Ekspertlər hesab edirlər ki, bəzi mülkiyyətçilər öz mənzillərini dəyişmək məcburiyyəti qarşısında qalacaq.*



1 yanvar 2015-ci ildən əmlak vergisinin daşınmaz əmlak vergisi ilə əvəz olunması nəzərdə tutulur və bu zaman dərəcələr inventar dəyəri əsasında deyil, kadastr dəyəri üzrə hesablanacaq.

Qanun layihəsi Dövlət Duması tərəfindən payızda müzakirəyə çıxarılacaq. Sahəsi 20 kv.metrədək olan mənzil sahiblərindən vergi tutulmayacaq. Vergi dərəcəsinin bazar dəyəri 300 milyon rubldan baha olan mənzillərin mülkiyyətçiləri üçün qaldırılması nəzərdə tutulur. Bu halda yüksəldilmiş vergi bütövlükdə daşınmaz əmlakın deyil, yalnız bir obyektin dəyəri göstərilən məbləğdən artıq olduqda tutulacaq. Mütəxəssislərin rəyincə, bu tədbir mənzil sahiblərindən tutulan vergilərin üçqat artımı ilə nəticələnəcək.

# Belarusda vergi dərəcələri endirilməyəcək

*2015-ci ildə Belarusda ƏDV, aksiz, gəlir vergisi və kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınan vahid verginin, daşınmaz əmlak vergisinin, torpaq vergisinin dərəcələrinin dəyişdirilməsi planlaşdırılmır. Vergi Məcəlləsinə ediləcək dəyişikliklər sırf redaktə xarakteri daşıyacaq.*

Ölkənin vergilər naziri Belarusda ƏDV-nin standart dərəcəsinin Avropadakı orta göstəricilərə müvafiq olduğunu qeyd etmişdir. O, 1 yanvar 2012-ci ildən Belarusda mənfəət vergisinin dərəcəsinin 24%-dən 18%-dək endirildiyini xatırlatmışdır. Nazir hesab edir ki, vergi sisteminin səmərəliliyinin artırılması üçün vergi dərəcələrinin deyil, onun keyfiyyət parametrlərinin, o cümlədən vergi inzibatçılığının və tədiyyəçilərlə qarşılıqlı münasibətlərin gücləndirilməsi, vergi qanunvericiliyinin sabitliyinin təmin olunması daha vacibdir.

# Misir alkoqol və tütünə tətbiq edilən vergiləri artıracaq

*Misirdə tütün məhsullarına tətbiq edilən aksizlər 50%-ə qədər, spirtli içkilərə isə təxminən iki dəfə artacaq. Müvafiq fərman ölkə iqtisadiyyatının sağlamlaşdırılmasına yönəldilmiş təcili tədbirlərdən biri kimi Misir prezidenti Əbdül Fəttah əl-Sisi tərəfindən qəbul edilib.*

Beləliklə, xaricdən idxal edilib-edilməməsindən asılı olmayaraq, siqaretlər üzrə 50%, pivə üzrə 200%, digər alkoqollu məhsullar üzrə isə vergi 3 dəfə artacaq.

Qəbul olunan qərar son illərdə 10% həcminə çatan büdcə kəsirinin aradan qaldırılmasına yönəlmiş qeyri-populyar tədbirlər silsiləsində sonuncudur. Ötən həftə Misirin Nazirlər Kabineti yanacağa və elektrik enerjisinə görə verilən dotasiyaların həcmini xeyli azaltmışdır. Bəzi neft məhsullarının qiyməti 80%-dək bahalaşmışdır ki, bu da 26%-i yoxsulluq içində yaşayan əhali arasında narazılığa səbəb olmuşdur. Yanacağa görə verilən dotasiyaların azaldılması səbəbindən baş verən tətillərə taksi sürücüləri və balıqçılar da qoşulmuşdur.

Prezident əl-Sisi seçkiqabağı çıxışlarında son dərəcə ağır vəziyyətdə olan Misir iqtisadiyyatının problemlərini aradan qaldırmağa qadir olduğunu və prezidentliyinin iki ili ərzində misirlilərin həyat səviyyəsinin yaxşılaşdığını hiss edəcəklərini bəyan etmişdir.

# Kiprdə daşınmaz əmlak vergisi kəskin azaldılıb

*Adada yerləşən, qiyməti 200.000 avroyadək olan obyektlərin sahibləri əmlak vergisindən azad edilir, qalanları isə vergini cəmi əmsalı 0,1% üzrə ödəyəcəklər.*

Kipr ərazisində daşınmaz əmlak sahiblərinin böyük qrupunu çoxsəviyyəli vergi ödəməsindən azad edən qanun layihəsi 2 iyul 2014-cü ildə ölkənin Nazirlər Şurası tərəfindən qəbul edilib. Düzəlişlər ediləndək qüvvədə olan qanunvericilik obyektin qiymətindən asılı olaraq vergi dərəcəsinin 6%-dən 19%-dək hüdudlarında olmasını nəzərdə tuturdu. Bu yaxınlarda daşınmaz əmlakın dəyəri 2013 ilin qiymətləri əsasında yenidən hesablanmış, sonra isə qanunun özünə dəyişikliklər edilmişdir.

Bütün bunlar hökumətin vergi əmsallarını əhəmiyyətli dərəcədə azaltmaq və büdcəyə zərər vurulmadan, mülkiyyətçilərin böyük qrupunu əmlak vergisini ödəməkdən azad etmək imkanlarının olduğunu göstərir.

Hökumət rəsmilərinin fikrincə, əvvəlki qanunvericilik mülkiyyətçilərin 40%-ni, mövcud olan isə artıq 54%-ni vergidən azad edir. Təbii ki, bu dəyişikliklər alıcıların, o cümlədən əcnəbilərin Kiprdə əmlak əldə etmək marağını gücləndirəcək.

Xarici ölkələrin təcrübəsi:

# Latviya Respublikasında mənfəət vergisi

*Latviyada 2012-ci ildə ÜDM 5,2% artaraq 28,4 mlrd. ABŞ dolları, adambaşına düşən ÜDM 14 min ABŞ dolları təşkil etmişdir.*

2012-ci ildə Latviyada ümumi vergi daxilolmalarının həcmi 8,3 mlrd. ABŞ dolları olmuşdur ki, bunun 24,5%-i birbaşa vergilər, 37,4%-i dolayı vergilər və 30,7%-i isə sosial sığorta ayırmalarının payına düşür.

Dövlət Gəlirlər Xidməti Latviya Respublikasında vergilərin tam və vaxtında yığılmasına nəzarət edən, Maliyyə Nazirliyinin tabeliyində olan orqandır. Dövlət Gəlirlər Xidməti 1993-cü il 28 oktyabr tarixdə «Dövlət gəlirlər xidməti» barədə Qanunun qəbul edilməsi ilə Dövlət Maliyyə Müfəttişliyi və Gömrük Departamentinin birləşdirilməsi nəticəsində yaradılmışdır. Əsas məqsədi vergi ödəyiciləri ilə əməkdaşlıq, yüksək xidmətin təminatı və ictimaiyyətdə könüllü əməletmənin formalaşdırılması vasitəsilə dövlət büdcəsinin gəlirlərini toplamaqdır.

Vergi ödəyicilərinin sayı 1 082 min nəfər, vergi əməkdaşlarının sayı isə 4 069 nəfər təşkil edir, ƏDV ödəyicilərinin ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi 7,77%-dir.

Latviyada mənfəət vergisi: Müəssisələr «Biznes gəliri vergisi» kimi tanınan mənfəət vergisinin ödəyiciləridirlər.

Aşağıdakı rezident hüquqi şəxslər mənfəət vergisinin ödəyiciləri hesab olunur:

- müəssisələr və sahibkarlıq fəaliyyəti ilə məşğul olan digər hüquqi şəxslər (ortaqlıqlar istisna olmaqla);
- iqtisadi fəaliyyətdən gəlir əldə edən, dövlət və ya yerli hakimiyyətlər tərəfindən maliyyələşdirilən qurumlar (həmin gəlirləri milli və ya yerli büdcəyə ödənilməli olmadığı halda).

Əgər müəssisə Latviya qanunvericiliyinə əsasən təsis edilmiş və qeydiyyata alınmışdırsa və ya Latviya qanunvericiliyinə əsasən təsis edilməli və qeydiyyata alınmalıdırsa rezident hesab olunur. İdarəetmə və nəzarətin həyata keçirildiyi yer bu baxımdan əhəmiyyət daşımır.

Latviyada müəssisə vergitutulan gəlirin yaranmasına çəkdiyi əsaslandırılmış xərcləri gəlirindən çıxa bilər.

Müəssisənin iqtisadi fəaliyyəti ilə birbaşa əlaqəsi olmayan, müəssisənin təhsil, idman, ketrinq və sağlamlıq kimi sosial infrastrukturunun yaradılmasına çəkilmiş xərclər, əgər, müəssisənin sahibkarlıq fəaliyyəti ilə bağlı deyilsə, göstərilən xidmətlər ödənişsiz və ya güzəştlidirsə və onların icarəsi qarşılıqlı surətdə asılı şəxslərlə bağlı deyilsə gəlirdən çıxılmır. Həmçinin cərimə və dəbbələr, lüks avtomobilin icarəsi, istifadəsi və saxlanılması xərcləri və bu cür avtomobilin alınması və ya icarəsi məqsədilə alınmış borc müqabilində ödənilən faizlər (sahibkarlıq fəaliyyətinin 90%-i və ya daha artıq hissəsi lüks avtomobillərin icarəsindən ibarət olan vergi ödəyiciləri istisna olmaqla), əyləncə xərclərinin 60%-i gəlirdən çıxılmır. Mənfəət vergisinin dərəcəsi 15%-dir.

Latviyada mənfəət vergisinin illər üzrə dərəcələri və mənfəət vergisi üzrə daxilolmaların ÜDM-də xüsusi çəkisi




*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**
1.ABŞ-ın cənubunda şəhər. 2.Azərbaycanın görkəmli ziyalısı, ilk universitet təhsilli alim və müəllimi, islam dünyasının ilk təbiətşünas alimi. 3. «Nestle» şirkətinin məhsulu - soyuq çay. 4.Nitqin, məqalənin qısa xülasəsi. 5.Yüksək texnologiyalı mobil telefon istehsal edən Britaniya şirkəti. 6.Afrikada dövlət. 9.Ziyan, zərər. 13.Fransız kinoaktyor, rejissor. «Oyuncaq» filminin (1976) baş qəhrəmanı rolunu oynayıb. 15.Masallı rayonunda qəsəbə. 16.Azərbaycanın ilk milli qəzeti. 17.Günəş sistemində 6-cı, böyüklüyünə görə isə Yupiterdən sonra ikinci planet. 18.Tağla örtülən, təkrarlanan eyni oyuqların sırası. 20.Balaca metal diyircək, çarx, təkər. 21.Xəzər sahilində qəsəbə.

**Soldan sağa:**
1.Molyerin pyesi. 5.Saxalində çay. 7.Sosializmi tətbiq etməklə cəmiyyəti dəyişdirmək və inkişaf etdirmək üçün XIX əsrin ortalarında meydana gəlmiş, özündə siyasi, fəlsəfi və iqtisadi doktrinaları ehtiva edən təlim və hərəkat. 8.Konfet növü. 10.Madaqaskarda vulkanik massiv və eyniadlı göl. 11.Paytaxtımızda prospekt. 12.Ötən əsrin 60-cı illərdə ABŞ-da yaranmış fəlsəfə və submədəniyyət. 14.Ədviyyat. Güclü antiseptik özəlliklərə malik, eyniadlı ağacın qurudulmuş qönçələri. 19.Xidməti və ya başqa fəaliyyət sahəsində irəliləmə, şöhrətlənmə, tanınma. 21.Azart oyunda xüsusi kart. 22.Danimarkalı fizikinin adı. Müasir fizikanın banilərindən biri. Atomun ilk kvant nəzəriyyəsini hazırlamış, atomun quruluşu və kvant mexanikasının əsaslarının işlənilməsində iştirak etmişdir. Atom nüvəsi nəzəriyyəsi və nüvə reaksiyaları sahələrinə fundamental töhvələr vermişdir. 23.Moskvada tarixi ərazi və metro stansiyası. 24.Birinci, əvvəlinci, ən əvvəl olan, ən qabaq. 25.Qara dəniz sahilində Rumıniyanın mühüm limanı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kakadu; 2.İsmayıl *(Osmanlı)*; 3.Obraz; 4.Edvard *(Qriq)*; 5.Pepsi; 6.Kardan; 9.Abır; 13.Alen *(Delon)*; 15.Antrakt; 16.Vağzal; 17.Eqoizm; 18.Pretor; 20.Saray; 21.Kredo.
**Soldan sağa:** 1.Klinometr; 5.Pik; 7.Kemerovo; 8.Opir; 10.Dayaz; 11.Rubrika; 12.Allah; 14.Orqan; 19.Aysberq; 21.Kater; 22.Zirə; 23.Diletant; 24.Ley; 25.Komposter.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# Yeniyetmə güləşçilərimizin növbəti zəfəri

*Slovakiyanın Snina şəhərində yeniyetmə güləşçilərin dünya çempionatı başa çatıb. Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, çempionatda iştirak edən hər üç növ üzrə yığma komandalarımız, ümumilikdə, 2 qızıl, 6 gümüş və 3 bürünc olmaqla 11 medalla böyük uğura imza atıblar.*

Qızıl medalları yığma komandamıza sərbəst güləş üzrə yarışan Teymur Məmmədov (63 kq) və Şamil Sadullayev (85 kq) qazandırıblar. Nicat Abdullayev (76 kq), Soslan Fanziyev (85 kq) və Cavid Feyziyev (100 kq) yunan-Roma güləşində, Leyla Qurbanova (49 kq) qadın güləşində, Əfqan Xaşalov (50 kq) və Mahir Əmiraslanov (58 kq) isə sərbəst güləş yarışlarında yalnız finalda uduzaraq, gümüş medala sahib olublar. Bürünc medalları isə yunan-Roma güləşi üzrə Seymur Hüseynov (46 kq), İslambek Dadov (69 kq) və qadın güləşi üzrə Türkan Nəsirova (46 kq) əldə ediblər.

Bu nəticə ilə güləşçilərimiz komanda hesabında da ön sıralarda qərarlaşıblar. Üç gümüş və 2 bürünc medal qazanan yunan-Roma güləşçilərimiz komanda hesabında Rusiya yığması ilə eyni xal toplayaraq ikinci nəticə göstəriblər. İki qızıl və 2 gümüş medal qazanan sərbəst güləşçilərimiz isə komanda hesabında beşinci pillədə qərarlaşıblar.



# Azərbaycanda səmti müəyyən etmə üzrə idman növü inkişaf mərhələsindədir

*Bu günlərdə İtaliyanın Lavarone şəhərində səmti müəyyən etmə üzrə dünya çempionatı keçirilmişdir.*

44 ölkənin iştirak etdiyi çempionat çərçivəsində Beynəlxalq Səmti Müəyyən Etmə Federasiyasının (IOF) Baş Assambleyası təşkil olunmuşdur. IOF-un Prezidenti Brayn Porteos 2013-cü ilin yekunları barədə məlumat vermiş, Azərbaycan Səmti Müəyyən Etmə Federasiyasının həmin dövr ərzində qeyd olunan idman növünün inkişafına xidmət edən layihələrini yüksək dəyərləndirmiş, IOF Şurasının qərarı ilə Azərbaycan SMEF-in IOF-un tamhüquqlu üzvü seçildiyini bildirmişdir.

Tədbirdə çıxış edən Azərbaycan SMEF-in prezidenti Mirəli Kazımov B.Porteosa təşəkkürünü bildirmiş, bu idman növünün gələcəkdə ölkəmizdə daha da inkişaf edəcəyini vurğulamışdır. M.Kazımov qonaqları 2015-ci ildə Azərbaycanda keçiriləcək ilk Avropa Oyunlarına dəvət etmişdir. Dünya çempionatı çərçivəsində, həmçinin, IOF və İtaliya tərəfindən səmti müəyyən etmə idman növünün üzv ölkələrdə fəal inkişafına istiqamətləndirilmiş seminar və praktik məşğələləri də təşkil olunmuşdur. Seminarda Azərbaycan, Argentina, Uruqvay, Çili, Ekvador, Kolumbiya, Moldova, Makedoniya, Serbiya, Kipr və Çernoqoriya iştirak etmişdir. Tədbirdə ölkəmizi Azərbaycan SMEİF baş katibi Zaur Seyidov və məsul katib Ülkər Həmdullayeva təmsil etmişlər.

# Azərbaycan velosipedçisi İtaliyada birinci yeri tutub

*Dünya kuboku və Avropa çempionatı ərəfəsində çıxışlarını davam etdirən velosiped idmanının trek növü üzrə Azərbaycan yığma komandası İtaliyada birinci kateqoriyalı «Giorni delle Rose» kuboku yarışında iştirak edib.*

Azərbaycan Velosiped İdmanı Federasiyasından bildiriblər ki, yığma komandamızın üzvü Olqa İsmayılova 200 metr məsafəyə sprint yarışında bütün rəqiblərini geridə qoyaraq turniri birinci pillədə başa vurub. İdmançımız bu uğuru ilə reytinqinə 80 xal əlavə edib. O.İsmayılova keyrində də uğurla çıxış edərək ikinci yeri tutmaqla reytinqini daha 72 xal artırıb. Digər velosipedçimiz Yelena Pavluxina sketç üzrə yarışlarda 26 idmançı arasında 12-ci nəticə göstərib. Kişilər arasında sprint yarışlarında isə yığma komandamızın üzvü Sergey Omelçenko 34 iştirakçı arasında 7-ci olub.




## Milli Mətbuat Gününə həsr olunmuş turnir

Azərbaycan Respublikası Stolüstü Tennis Federasiyasının dəstəyi, Gənclər və İdman Nazirliyinin və «Sportsman» jurnalının təşkilatçılığı ilə kütləvi informasiya vasitələrinin nümayəndələri arasında 22 İyul - Milli Mətbuat Gününə həsr olunan stolüstü tennis üzrə yarış keçirilib.

Turnirdə otuzdan artıq kişi və qadın mətbuat nümayəndəsi iştirak edib. Gərgin idman mübarizəsi şəraitində keçən yarış Beynəlxalq Stolüstü Tennis Federasiyasının qaydalarına uyğun təşkil edilib.

Turnirin qalibləri Azərbaycan Stolüstü Tennis Federasiyasının və «Sportsman» jurnalının diplom və mükafatları ilə təltif olunublar

mozaika

## 520 milyon illik beyin tapıldı

maraqlı



Çində 520 milyon il əvvəl, ilkin Kembriya dövründə yaşamış anomalokarislərin yeni növünün daşlaşmış qalıqları tapılıb. Paleontoloqların dediklərinə görə, canlının beyninin daş üzərində izləri qalıb.

Tapılan canlının beyni çox primitivdir. Halbuki anomalokarislərin şikarlarının tam əksəriyyətinin beyinləri daha mürəkkəb olub.

Dəniz və okeanlarda yaşamış anomalokarislərin ağızlarında iki böyük tutaqacları vardı.

Alimlərin Çində aşkarladıqları yeni növ «Lyrarapax unguispinus» adlandırılıb.

Paleontoloqların fikrincə, anomalokarisin beyninin şikarları ilə müqayisədə daha primitiv olması daha güclü yırtıcıların formalaşmasının əsəb sisteminin təkamülünə təkan verməsinə dəlalət edir.

## Darçının müalicəvi xüsusiyyətləri

saglam hayat tarzi

Raş Universiteti nəzdindəki tibb mərkəzinin mütəxəssisləri müəyyən etmişlər ki, adi darçının təbabət üçün son dərəcə faydalı xüsusiyyətləri vardır. Onun tərkibinə daxil olan maddələr insanın baş beynində degenerativ prosesləri ləngidir. Darçın Parkinson xəstəliyindən əziyyət çəkən xəstələrə daha faydalıdır.

Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, darçın yeyilən zaman orqanizmdə natrium benzoat əmələ gəlir. Bu maddə baş beyinə rahat daxil olaraq sinir toxumasının qorunmasına cavabdeh olan zülalların dağılması prosesini yavaşıdır.

Qeyd edək ki, bu zülallar parkinsonizm zamanı ciddi xəsarət alır. Eksperiment laboratoriya siçanları üzərində aparılmışdır. Məlum olduğu kimi, siçanlar ilə insanın sinir sistemi eyni qanunlara tabedir.

Alimlər hesab edirlər ki, bu kəşf Parkinson xəstəliyinin inkişafını yavaşıdan ən təhlükəsiz vasitəni işləyib hazırlamağa kömək edəcəkdir.

## QİÇS xəstəliyi yoxa çıxmaq üzrədir



Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) 2030-cu ilə qədər nəzarətə götürüləcək. Milli.Az Rusiya mətbuatına istinadən bildirir ki, bu barədə QİÇS üzrə beynəlxalq agentliyin (United Nations Aids agency) yeni yaydığı hesabatda deyilir.

Hesabatda qeyd olunub ki, son illər insanların HİV-ə yoluxması və QİÇS-dən ölüm halları azalıb. Xəstəliyin tamamilə yox olması üçün bütün ölkələrin daha çox güc sərf etmələri gərəkdir.

Bu gün dünyada 35 milyon HİV xəstəsi daşıyıcısı yaşayır. Ötən il HİV-ə yoluxanların sayı 2,1 milyon olub ki, bu da 2001-ci illə müqayisədə 38% azdır. Son üç ildə QİÇS-dən ölüm sayı 5 dəfə azalıb. Vəziyyət Cənubi Afrika Respublikası və Efiopiyada da yaxşılaşıb.

Antiretrovirus dərman vasitələrini əldə etmək də insanlar üçün yaxşılaşıb. Baxmayaraq ki, bu gün dünyada HİV daşıyıcısı olan hər 10 xəstədən 4-ü bu dərmanları əldə edə bilir.

Mütəxəssislər deyirlər ki, HİV-ə yoluxmuş adamın orqanizmində immun çatışmazlığının (QİÇS) formalaşması üçün 10 il vaxt gedir. Ancaq antiretrovirus dərman vasitələrini qəbul edən şəxslər virusu nəzarətdə saxlayırlar. HİV-ə yoluxanların 54%-i bundan xəbərsiz olurlar. 63%-i isə antiretrovirus terapiyası qəbul etmirlər.

## Siqaretlə intihar arasında əlaqə

araşdırma

*Siqaret çəkən adamlar intihara daha çox meyillidirlər. Milli.Az Rusiya mətbuatına istinadən bildirir ki, bu barədə «Nicotine & Tobacco Research» elmi jurnalında dərc olunan məqalədə qeyd olunub.*



Son araşdırmalar göstərib ki, səbatsız psixikaya malik insanlar, əsasən, siqaret çəkənlərdir. Bu səbəbdən də alimlər hesab edirlər ki, tütün ticarətinin dövriyyəsi azaldılsa və ya yüksək vergilər tətbiq edilsə, intiharların sayı da azalar.

Alimlər siqaretin qiymətinin intiharlara təsirini araşdırdıqdan sonra belə bir nəticəyə gəliblər. Bu səbəbdən də onlar hesab edirlər ki, tütün məhsullarına olan verginin 1 dollar artırılması intiharların sayını 10 faiz azalda bilər.

## 4 metrlik 3D printer yaradılıb

texnologiya



Yaponiyanın Genkei şirkəti dünyanın ən böyük 3D formatlı printerlərindən birini yaradıb. Printerin hündürlüyü 4 metr təşkil edir ki, bu da onu orta statistik insanın boyundan iki dəfə hündür edir. 3D printer qeyri-adi olmaqla delta 3D printerlər sinfinə aiddir.

Delta 3D printerlər konstruksiyasına görə fərqlənən 3D printerlərdir. Adətən, burada xüsusi şarnirlərdə konstruksiyanın bünövrəsinə bərkidilən üç istiqamətləndirici əldən istifadə olunur. Maraqlıdır ki, 3D printerlər texniki xüsusiyyətlərinə görə delta robotların daha təkmil texnoloji versiyalarıdır. Belə robotlardan adətən yüksək məhsuldarlığın tələb olunduğu qablaşdırma, çeşidləmə, tibbi və əczaçılıq sənayesində istifadə olunur.

Genkei 3D printeri Tokio Dizayn və İncəsənət Universiteti ilə birlikdə ərsəyə gətirib. Printerin Tokio Milli Universitetinin təsviri incəsənət və musiqi muzeyində nümayiş olunması planlaşdırılır.

Qeyd etmək lazımdır ki, belə printerlər müəyyən çatışmazlıqlara da malikdir. Birincisi, dəqiqlik zəifdir, ikincisi - üçölçülü çap prosesini dərhal başlaya bilən adi 3D printerlərdən fərqli olaraq, delta 3D printerə üçölçülü çap prosesinə başlamaq üçün 3-5 gün vaxt lazımdır.

Lakin 3D printerin innovativliyi ölçüsündən daha çox onun çap sistemindədir. Genkei şirkətinə məxsus sistem qızdırılmış plastik tellərdən istifadə etmək əvəzinə, toz prosesindən istifadə edir ki, bu da ona adi 3D printerlərlə müqayisədə daha çox çap səthini əhatə etməyə imkan verir.

**Müdriklər deyib ki...**

***«Kamillik yalnız biliyin dərinliyində, hisslərin zənginliyində deyil, eyni zamanda iradənin qüvvəsindədir».***

***Aristotel***

